MG

CONSULTING

# Qeyri-hökumət təşkilatlarının qeydiyyatı və ləğvi



# *Qeyri-hökumət təşkilatlarının qeydiyyatı və ləğvi*

# Mündəricat


**Hissə 1: Giriş**........................................................................................ 4

**Hissə 2: QHT-in yaradılması**........................................................................ 5

**Hissə 3: QHT-nin qeydiyyat proseduru**................................................................ 11

**Hissə 4: Fondların yaradılması və qeydiyyatı**........................................................ 15

**Hissə 5: Qeydiyyatdan irəli gələn öhdəliklər**........................................................ 15

**Hissə 6: QHT-lərin ləğvi**............................................................................ 16

**Hissə 7: Yenidən təşkil edilmə**....................................................................... 18

**Hissə 8: Məcburi ləğvetmə**............................................................................ 20

**Hissə 9: Könüllü ləğvetmə**............................................................................ 23

**Hissə 10: QHT-nin reyestrdən çıxarılması**............................................................ 25

**Hissə 11: QHT-nin vergi orqanlarında qeydiyyatdan çıxarılması**....................................... 27

**Hissə 12: Ləğv etmədən irəli gələn öhdəliklərvə əmlak məsələləri**..................................... 28

**Əlavə I:** Qeydiyyat üçün nümunəvi ərizə forması...................................................... 29

**Əlavə II:** Hüquqi ünvana dair sənədin nümunəsi....................................................... 31

**Əlavə III:** Təsis protokolunun nümunəsi............................................................... 32

**Əlavə IV:** QHT-nin könüllü ləğvi üçün mərhələlər sxemi................................................ 34

**Əlavə V.** Ödəmə qabiliyyətinin olmasına dair bəyanat nümunəsi......................................... 36

**Əlavə VI:** Ərizə nümunələri........................................................................... 38

**Əlavə VII:** Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanun........................................................................................ 40

**Əlavə VIII:** Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanun...................................................................................... 58

## Hissə 1: Giriş

### 1.1. Bələdçinin məqsədi

Təqdim olunan bələdçinin məqsədi Azərbaycanda qeyri-hökumət təşkilatı (QHT) yaratmaq istəyən şəxslərə və qruplara QHT-nin yaranması, qeydiyyatı və ləğvi proseduru barədə ətraflı məlumat vermək və onları qanunvericiliyin tələbləri ilə tanış etməkdir. Vəsait qeydiyyatdan keçməmiş ictimai birliklər,beynəlxalq təşkilatlar, hüquqşünaslar və bu sahədə qanunvericilik və təcrübə ilə maraqlanan digər şəxslər üçün də faydalı ola bilər.
Bu bələdçidə yalnız yerli QHT-lərin yaranması və qeydiyyatı ilə bağlı qanunvericilikdə əks olunmuş müddəalar nəzərdən keçirilir. Ləğv ilə bağlı isə həm yerli həmdəki xarici QHT-lərin filial və nümayəndəliklərinin ləğvi və reyestrdən çıxarılması qanunvericiliyi əhatə edir.

### 1.2. QHT-nin yaradılmasının hüquqi əsasları

QHT yaratmaq hüququ birləşmək azadlığının bir hissəsidir. Birləşmək azadlığı həm beynəlxalq sənədlərdə (Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq Pakt, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası və s.), həm də Azərbaycan Respublikasının daxili qanunvericiliyində (Azərbaycan Respublikasının Konstitusiyası, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanun, Mülki Məcəllə və s.) əks olunur.
Azərbaycan Respublikasının Konstitusiyası birləşmək hüququnu **58-ci maddədə** nəzərdə tutmuşdur. Konstitusiyanın bu maddəsi "hər kəsin başqaları ilə birləşmək hüququ"nun olmasını və hər kəsin "istənilən birlik ... yaratmaq və ya mövcud olan birliyə daxil olmaq hüququna" malik olmasını nəzərdə tutmuşdur.

### 1.3. QHT və QKT

Azərbaycan qanunvericiliyində həm qeyri-hökumət təşkilatı (QHT), həm də qeyri-kommersiya təşkilatı (QKT) terminləri istifadə edilir. Qeyri-kommersiya təşkilatı (QKT) Azərbaycan Respublikasının Mülki Məcəlləsinin müəyyən etdiyi iki hüquqi şəxs növündən biridir. Qeyri-kommersiya hüquqi şəxslərinin fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən hüquqi şəxslərdir. Buraya ictimai birliklər, fondlar və hüquqi şəxslərin ittifaqları aiddir. «Qeyri-hökumət təşkilatı» anlayışına ictimai birliklər və fondlar daxildir. Digər sözlərlə desək, QKT daha geniş anlayışdır.

İctimai birlik - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.

Fond - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatıdır.

1.4. Qeydiyyatsız QHT-lər

Dövlət qeydiyyatından keçməmiş QHT-lərin yaradılması və fəaliyyəti qanunvericiliklə qadağan edilmir. İstənilən şəxslər (fiziki və ya hüquqi şəxs) birləşmək azadlığından istifadə edərək QHT yarada bilər, həmin QHT adından çıxış edə, müxtəlif layihələr həyata keçirə bilər. Lakin dövlət qeydiyyatından keçməmiş QHT-lər üçün aşağıdakı məhdudiyyətlər mövcuddur:

(i) Onlar hüquqi şəxs sayılmırlar;
(ii) Onlar məhkəmədə iddiaçı qismində çıxış edə bilmirlər;
(iii) Onlar bankda təşkilatın adına hesab aça bilmirlər;
(iv) Onlar möhürə sahib ola bilmirlər;
(v) Onlar təşkilat üçün seçdikləri adı qoruya bilmirlər; və s.

Digər tərəfdən, qeydiyyatdan keçməmiş QHT-lərin müxtəlif qrant müsabiqələrində iştirak etmək hüququ olmur. Belə müsabiqələrdə onlar yalnız qeydiyyatdan keçmiş təşkilat vasitəsi ilə iştirak edə bilərlər (əməkdaşlıq müqaviləsi əsasında).

## Hissə 2: QHT-nin yaradılması

Qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə mövcud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər. Qeyri-hökumət təşkilatının təsis edilməsi nəticəsində yaradılması təsisçilərin (təsisçinin) qərarı ilə həyata keçirilir. Bu halda təsis yığıncağı çağırılır və təşkilatın nizamnaməsi qəbul olunur.

İctimai birliyin təsis edilməsi haqqında bildiriş onun təsis edilməsi haqqında qərarın qəbul olunduğu andan 30 gündən gec olmayaraq Ədliyyə Nazirliyinə yazılı müraciət vasitəsilə həyata keçirilir. İctimai birliyin rəhbəri tərəfindən imzalanmış

müraciətə təsis protokolu da əlavə olunmalıdır. Ədliyyə Nazirliyi ictimai birliyin təsis edilməsi haqqında bildirişi alan günü bildirişin daxil olmasını təsdiq edən sənədi ictimai birliyin nümayəndəsinə verir və ya poçt vasitəsilə göndərir. Bildirişin təqdim olunması hüquqi şəxs statusu qazanmaq demək deyil.

2.1. Təsisçilər

QHT-nin təsisçisi onun yaradılması haqqında qərar qəbul edən və təşkilatın nizamnaməsini qəbul edən fiziki və ya hüquqi şəxslərdir. Mövcud qanunvericilik təsisçilərin sayının minimal həddini müəyyən etmir. Bu o deməkdir ki, QHT hətta bir təsisçi tərəfindən də yaradıla bilər. Lakin, bir fiziki şəxs və ya hüquqi şəxs yalnız fond formasında yaradılan qeyri-hökumət təşkilatının təsisçisi ola bilər. İctimai birliyin təsisçilərinin sayı isə ən azı iki nəfər olmalıdır.

Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri—16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

Qeyri-hökumət təşkilatlarının təsisçiləri bərabər hüquqlara malikdir. Onların qarşılıqlı hüquq və vəzifələrinin həcmi qeyri-hökumət təşkilatının təsis edilməsinə münasibətdə təsis müqaviləsi ilə (müqavilə bağlandıqda), qeyri-hökumət təşkilatının fəaliyyətində iştiraka münasibətdə isə qeyri-hökumət təşkilatının nizamnaməsi ilə müəyyən edilir.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycanda daimi yaşamaq hüququ olduğu təqdirdə Azərbaycan ərazisində qeyri-hökumət təşkilatının təsisçisi ola bilərlər.

2.2. Üzvlər

Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər.

İctimai birliyin üzvləri bərabərhüquqludurlar. Onlar ictimai birliklərin rəhbər orqanlarına seçə və seçilə, fəaliyyətində iştirak edə, rəhbər orqanların fəaliyyətinə nəzarət edə, nizamnamə ilə nəzərdə tutulmuş digər hüquqlara malik ola bilərlər, eləcə də nizamnamə tələblərinə riayət etməlidirlər.

İctimai birliyin üzvlüyünün əldə edilməsi və üzvlüyə xitam verilməsi məsələləri nizamnamə ilə müəyyən edilir. Nizamnamə ictimai birliyin üzvlüyünə xitam

verilməsindən birliyin daxilində və məhkəməyə şikayət etmə hüququna təminat verməlidir.

İctimai birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməlidir. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol verilməməlidir. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatının fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər.

Bu və ya digər şəxsin ictimai birliyin üzvlüyünə qəbul edilməsi hər bir təşkilatın nizamnaməsi ilə müəyyən edilən mexanizmlə tənzimlənir. Maraqlı şəxsin bunun üçün ictimai birliyə ərizə verməsi kifayətdir. İctimai birliyin üzvlüyünə aşağıdakı hallarda xitam verilə bilər:

- üzvün öz xahişi ilə;
- fiziki şəxsin ölümü və ya onun üzvlüyü ləğv edildikdə;
- ictimai birliyin üzvlüyündən çıxarıldıqda;
- ictimai birlik ləğv edildikdə.

İctimai birliyin nizamnaməsində üzvlüyə xitam verilməsinin başqa əsasları da müəyyən edilə bilər.

İctimai birliyin təsisçilərinə və üzvlərinə ümumi yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilməlidir. Ümumi yığıncaq yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə Nizamnaməyə dəyişikliklər edə bilər. Hər bir üzv bir səsə malikdir.

2.3. Könüllülər

Könüllü — öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

Könüllü fəaliyyəti dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli özünüidarə orqanları və qeyri-hökumət təşkilatlarında təşkil oluna bilər.

Qanunvericiliyə əsasən, könüllülüyə aşağıdakı məhdudiyyətlər qoyulur:

- Şəxs öz iş yerində könüllü fəaliyyətlə məşğul ola bilməz.

- Könüllünün işçi çatışmazlığının qarşısını almaq məqsədi ilə istifadəsinə yol verilmir.
- Kommersiya hüquqi şəxslərində könüllü fəaliyyətin həyata keçirilməsinə yol verilmir.
- Yetkinlik yaşına çatmamış şəxslər valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı əsasında könüllü fəaliyyət ilə məşğul ola bilərlər.
- Könüllü yalnız müvafiq yazılı müqavilə əsasında könüllü fəaliyyətə cəlb edilə bilər. Qanunvericilik QHT-nin könüllü ilə yazılı müqavilə bağlamamasına görə yüksək məbləğdə cərimə nəzərdə tutur (vəzifəli şəxslər üçün 1000-2000 manat, QHT-lər və xarici QHT-lərin filial və nümayəndəlikləri üçün 2500-3000 manat).

## 2.4. QHT-nin nizamnaməsi

Qeyri-hökumət təşkilatının nizamnaməsi onun əsas təsis sənədi hesab olunur. Qeyri-hökumət təşkilatının nizamnaməsində aşağıdakılar əks olunmalıdır:

(i) qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer;
(ii) qeyri-hökumət təşkilatının fəaliyyətinin məqsədləri, daimi və ya konkret məqsədlə təsis edildiyi, idarəolunma qaydası;
(iii) üzvlərin hüquq və vəzifələri;
(iv) ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası;
(v) qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri;
(vi) nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası;
(vii) qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakından istifadə qaydasının müəyyən edilməsi.

Nizamnamə qeyri-hökumət təşkilatının təsisçisi/təsisçiləri tərəfindən təsdiq edilir. Əgər QHT yaradılarkən təsis yığıncağı keçirilibsə, nizamnamə təsis yığıncağında müzakirə edilməli və səsvermə yolu ilə qəbul edilməlidir.

İctimai birliyin nizamnaməsində habelə, ictimai birliyin əmlakının idarə olunması qaydaları, təsisçilər ictimai birliyin idarə olunmasında iştirak etdiyi hallarda onların hüquqi statusu, ictimai birliyin köməkçilərinin hüquqi statusu, filial və nümayəndəliklərinin yaradılması, ləğv edilməsi, onların rəhbərlərinin təyin olunması qaydası, ictimai birliyin üzvlərinə təşkilatın ümumi yığıncağı barədə məlumat verilməsi qaydası və məlumatların məzmunu, mənafelərin toqquşması halları və onların aradan qaldırılması yolları, ictimai birliyin vəzifəli şəxslərinin məsuliyyəti məsələləri, ictimai birliyin auditorunun təyin olunma qaydası, ictimai birliyin

əmlakından istifadə barədə illik hesabatların təsdiq olunması qaydası və digər məsələlər nizama salınmalıdır.

İctimai birliyin nizamnaməsinə dəyişikliklər onun ali idarəetmə orqanının qərarı ilə edilə bilər. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin dövlət qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklər onların dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

## 2.5. Qeydiyyat üçün tələb edilən sənədlərin siyahısı

Hüquqi şəxs statusu almaq istəyən QHT dövlət qeydiyyatına alınması üçün Ədliyyə Nazirliyinə ərizə ilə müraciət etməlidir. Ərizə təsisçi (bir neçə təsisçi olduqda isə, bütün təsisçilər) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir.

Ərizədə aşağıdakılar göstərilir:

- təsisçi (təsisçilər) fiziki şəxs olduqda - onun (onların) adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi;
- təsisçi (təsisçilər) hüquqi şəxs olduqda - onun (onların) adı, olduğu yer və qeydiyyat nömrəsi;
- ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda — habelə onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verilmə tarixi və vəkalətnamə haqqında məlumatlar.
- Müvafiq ərizə formasında müəyyən edilən digər məlumatlar.

Ərizəyə aşağıdakı sənədlər də əlavə edilməlidir:

- təsis sənədləri - hüquqi şəxs statusu almaq istəyən qurumun təsisçisi (təsisçiləri) və ya onun (onların) səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş **nizamnaməsi**, həmin qurumun yaradılması və nizamnaməsinin təsdiq edilməsi haqqında **qərar** (qərarda hüquqi şəxs statusu almaq istəyən qurumun təsisçiləri tərəfindən onun təsis edilməsi niyyəti, birləşmə, ayrılma və bölünmə zamanı yeni hüquqi şəxs yaradılarkən yenidən təşkilin şərtləri, nizamnamənin təsdiq edilməsi, təyin edildiyi halda qanuni təmsilçi və onun səlahiyyətləri, habelə təsisçilər tərəfindən zəruri hesab edilən digər məsələlər göstərilməli və bu qərar bütün təsisçilər tərəfindən imzalanmalıdır);
- dövlət rüsumunun ödənilməsi haqqında sənəd;
- təsisçi hüquqi şəxs olduqda - onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin notariat qaydasında təsdiq olunmuş surəti;

- təsisçi fiziki şəxs olduqda—onun şəxsiyyətini təsdiq edən sənədin surəti;
- hüquqi şəxs statusu almaq istəyən qurumun **hüquqi ünvanını təsdiq edən sənəd;**Dövlət qeydiyyatı üçün ərizə Ədliyyə Nazirliyinə təqdim ediləndə QHT hüquqi ünvan haqqında məlumatı öz nizamnaməsində əks etdirməlidir. Hüquqi ünvan QHT-nin yerləşdiyi faktiki ünvandan fərqli ola bilər;
- qanuni təmsilçinin təyin edildiyi halda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti;
- qeyri-hökumət təşkilatının təsisçisi (təsisçiləri) və ya qanuni təmsilçisi (təmsilçiləri) Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduqda – onların daimi yaşamaq hüququnu təsdiq edən sənədin surəti;
- təşkilatı təmsil edən şəxsin səlahiyyətini təsdiq edən sənəd (olduğu halda).

Ərizə surəti ilə birlikdə təqdim edilir. Ərizənin əsli Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində saxlanılır, surəti isə Ədliyyə Nazirliyi tərəfindən ərizənin əslinin qəbul edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsə qaytarılır.

Təcrübədə bəzən yuxarıda qeyd edilən sənədlərlə yanaşı dəstək məktubları da tələb olunur. Dəstək məktubları QHT-ni tanıyan və ya QHT ilə əməkdaşlıq edən dövlət qurumu (Təhsil Nazirliyi, Gənclər və Turizm Nazirliyi və s.) və ya digər təşkilat (donor, partnyor yerli təşkilat və s.) tərəfindən verilə bilər.

2.5.1. Hüquqi ünvana dair sənəd

QHT-nin hüquqi ünvanına dair sənədi aşağıdakılardan biri ola bilər:

(i) icarə müqaviləsi;

(ii) QHT mənzildə yerləşirsə, mənzil sahibinin notarial qaydada təsdiq edilmiş razılıq məktubu (nümunə əlavə edilir).

Qeyri-hökumət təşkilatının hüquqi və faktiki ünvanı dəyişdikdə Ədliyyə Nazirliyinə bu barədə 7 gün müddətindən az olmamaq şərti ilə yazılı məlumat verilməlidir.

2.6. Sənədlərin təsdiqi üçün rüsumlar

Notarial təsdiqi tələb olunan ərizənin və yuxarıda qeyd edilən digər sənədlərin surətlərinin təsdiqi üçün dövlət rüsumu 2 manat (hər sənəd üçün) və surətlərin təsdiqi üçün hər səhifəyə görə əlavə 0,50 manat təşkil edir. Sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünün təsdiqi üçün dövlət notariusları göstərilən notariat xidmətinə görə qeyd olunan rüsum məbləğində əlavə haqq da tuturlar.

2.7. Qeydiyyat üçün rüsum

QHT-nin qeydiyyatı üçün 11 (on bir) manat məbləğində dövlət rüsumu ödənilməlidir. Fondun qeydiyyatı üçün isə ən azı 10000 (on min) manat nizamnamə kapitalı olmalıdır. Bu rüsum (fondlar üçün nizamnamə kapitalı) Kapital Bankın istənilən filialına ödənilir və ödəməni təsdiq edən qəbz qeydiyyat üçün ərizəyə əlavə edilir.

## Hissə 3: QHT-nin qeydiyyat proseduru

QHT hüquqi şəxs statusunu yalnız Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən qeydiyyatdan keçdikdən sonra əldə edir. Xarici qeyri-hökumət təşkilatlarının nümayəndəlik və filiallarının dövlət qeydiyyatı da Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Naxçıvan Muxtar Respublikasının ərazisində yaradılan qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir. Azərbaycanın digər regionlarında və şəhərlərində yaradılan QHT-lərin qeydiyyatı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən həyata keçirilir.

3.1. Qeydiyyat üçün ərizənin təqdim edilməsi

Yuxarıda qeyd edilən qaydada tərtib edilmiş ərizə müvafiq sənədlərlə birlikdə Ədliyyə Nazirliyinə təqdim edilməlidir (əlaqə məlumatları aşağıdadır). Ərizə və sənədlər şəxsən təqdim edilə və ya poçt vasitəsi ilə göndərilə bilər.

3.1.1. Qeydiyyat idarəsinin əlaqə məlumatı

**1) Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi**
Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri AZ1007, Azadlıq prospekti 72
Tel: (99412) 404-42-81
Faks: (99412) 404-42-99
E-mail:notvva@bakinter.net
Qaynar xətt: (99412) 510-21-58

**2)Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi**
Naxçıvan şəh. İ. Səfərli küç. 5
Tel: (994 136) 45-01-56

Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı ilə bağlı sənədlər həmçinin Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən qəbul oluna bilər. Bu

halda sənədləri qəbul etmiş rayon (şəhər) qeydiyyat şöbəsi müşayiət məktubu ilə bir gün ərzində onları baxılması üçün Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat baş idarəsinə göndərməlidir.

3.1.2. Müddətlər

Ərizə və qeyd edilən sənədlər Ədliyyə Nazirliyinə təqdim edildikdən **30 gün** ərzində baxılmalıdır. Bu müddət ərzində onların Azərbaycan Respublikasının Konstitusiyasına, Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğunluğu yoxlanılır. Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, bu müddət **daha 30 günə qədər**artırıla bilər. Təqdim edilmiş sənədlərdə dövlət qeydiyyatına alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, Ədliyyə Nazirliyi həmin sənədləri müraciət etmiş şəxsə qaytarmaqla, bu çatışmazlıqların aradan qaldırılması üçün **əlavə olaraq 20 gün** müddət təyin edir. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir. Təqdim edilmiş sənədlər yoxlanıldıqdan və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra **10 gündən gec olmayaraq** müraciət edənə Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət qeydiyyatına alınmasından imtina (qanunvericiliyin həmin imtinaya səbəb olmuş müddəaları göstərilməklə və izah edilməklə) barədə yazılı məlumat verilir. Əgər qeyd edilən müddətdə dövlət qeydiyyatına alınmasından imtina barədə cavab verilmədikdə, həmin qurum dövlət qeydiyyatına alınmış hesab olunur. Bu halda Ədliyyə Nazirliyi **10 gündən gec olmayaraq** müraciət edənə dövlət qeydiyyatı haqqında şəhadətnamə verməlidir.

3.2. Qeydiyyat haqqında şəhadətnamə

Dövlət qeydiyyatına alınmış QHT-yə Ədliyyə Nazirliyi tərəfində onun dövlət qeydiyyatına alınmasını təsdiq edən sənəd - dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir. Dövlət qeydiyyatına alınmış QHT barəsində dövlət reyestrinə daxil edilmiş məlumatlar dövlət reyestrindən çıxarışla təsdiq edilir. QHT-nin dövlət qeydiyyatı haqqında şəhadətnamə və dövlət reyestrindən çıxarışı onun fərdiləşdirilməsi (möhürün, ştampın, firma blankının hazırlanması, habelə bank hesabının açılması, vergi və digər orqanlarda qeydiyyat alınması) üçün əsasdır.

3.3. QHT-lərin filial və nümayəndəliklərinin qeydiyyatı

Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

Qeyri-hökumət təşkilatının filialı və ya nümayəndəliyi hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından, təsdiq etdiyi Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun, fəaliyyət göstərir. Filial və nümayəndəliklərin fəaliyyətinə görə onları yaradan qeyri-hökumət təşkilatı məsuliyyət daşıyır. Qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində onu yaratmış təşkilatın adı, dövlət qeydiyyatı haqqında məlumatlar (qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, onun qeydiyyatını aparmış qurumun adı), filial və ya nümayəndəliyin hüquqi ünvanı, idarə edilməsi qaydası, rəhbərinin səlahiyyətləri, ləğv olunması qaydası göstərilməlidir.

3.4. Qeydiyyatdan imtina üçün əsaslar

İctimai birliyin dövlət qeydiyyatına alınmasından yalnız aşağıdakı hallarda imtina edilə bilər:

- Ədliyyə Nazirliyinə təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda;
- Hüquqi şəxs statusu almaq istəyən qurumların məqsədləri, vəzifələri və fəaliyyət formaları qanunvericiliyə zidd olduqda;
- Firma adlarının qorunması haqqında qanunvericiliyin tələbləri pozulduqda və ya eyni adlı qeyri-kommersiya təşkilatı qeydiyyata alınmış olduqda;
- Ədliyyə Nazirliyi tərəfindən təsis sənədlərində aşkar edilmiş çatışmazlıqlar 20 gün ərzində aradan qaldırılmadıqda;
- Ərizədə göstərilən məlumatlar və (və ya) ona əlavə edilən sənədlər yanlış olduqda.

Yuxarıda qeyd edilən şərtlərlə ictimai birlik Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmasa, birliyin məhkəməyə müraciət etmək hüququ yaranır. QHT dövlət qeydiyyatına alınmasından imtinadan inzibati qaydada yuxarı orqana da şikayət verə bilər.

Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından imtina pozuntular aradan qaldırıldıqdan sonra sənədlərin dövlət qeydiyyatı üçün yenidən təqdim edilməsinə mane ola bilməz.

3.5. Məhdudiyyətlər

- Qeyri-hökumət təşkilatı mənfəətsiz, qeyri-kommersiya xarakterli təşkilatdır. O, mənfəət əldə etməyi əsas məqsəd kimi qarşısına qoya bilməz.
- Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər.
- Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.
- Qeyri-hökumət təşkilatı siyasi fəaliyyətlə məşğul ola bilməz.
- Qeyri-hökumət təşkilatı dini fəaliyyətlə məşğul ola bilməz və dini təbliğ edə bilməz.
- Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi şəxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar.
- Qeyri-hökumət təşkilatları dövlət orqanları tərəfindən və dövlət məmurları tərəfindən təsis edilə bilməz. Dövlət hakimiyyət orqanları qeyri-hökumət təşkilatlarının iştirakçıları, yəni təsisçiləri, üzvləri və köməkçiləri ola bilməzlər.
- Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.
- Təşkilatın rəmzləri Azərbaycan Respublikasının və xarici dövlətlərin dövlət rəmzləri, habelə dövlət orqanlarının, beynəlxalq təşkilatların və digər qurumların rəmzləri ilə eyni olmamalı, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.
- Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

**Hissə 4: Fondların yaradılması və qeydiyyatı**

Fondların yaradılması və qeydiyyatı ictimai birliklərin yaradılması və qeydiyyatı ilə müəyyən qədər oxşardır.

Fondun nizamnaməsi ictimai birliyin nizamnaməsindən bir qədər fərqlənir. Fondun nizamnaməsində həm də fondun «fond» sözü daxil edilmiş adı, onun olduğu yer, fondun məqsədi, onun orqanları, o cümlədən Himayəçilik Şurası və onların formalaşma qaydası, fondun vəzifəli şəxslərinin təyin edilməsi və onların azad edilməsi və fondun ləğv edildiyi halda onun əmlakının müqəddəratı haqqında məlumatlar olmalıdır.

Fondun nizamnaməsinə dəyişikliklərin edilməsi fondun Himayəçilik Şurası tərəfindən və yalnız fondun məqsədləri istiqamətində edilə bilər. Fondun nizamnaməsi fondun Himayəçilik Şurası tərəfindən bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun. Əgər fondun nizamnaməsinin dəyişilməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə gətirərsə və nizamnamədə dəyişikliklərin mümkünlüyü isə nəzərdə tutulmayıbsa, yaxud nizamnamə səlahiyyətli şəxslər tərəfindən dəyişilməyibsə, bu nizamnaməyə dəyişikliklərin edilməsi hüququ fondun Himayəçilik Şurasının ərizəsinə əsasən məhkəməyə mənsubdur.

Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır.

**Hissə 5: Qeydiyyatdan irəli gələn öhdəliklər**

İctimai birliyin (və fondun) dövlət qeydiyyatına alındıqdan sonra müəyyən öhdəlikləri yaranır:

- Vergilər Nazirliyində, Sosial Müdafiə Fondunda və digər qurumlarda qeydiyyata durmaq;
- Ədliyyə Nazirliyində qeydiyyata alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılması təmin etmək (fondlara aid deyil);
- Aldıqları bütün qrant müqavilələrini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirmək;
- Hər il aprelin 1-dək Maliyyə Nazirliyinə illik maliyyə hesabatı təqdim etmək;
- İldə bir dəfədən az olmayaraq ümumi yığıncaqçağırmaq (fondlara aid deyil);

- Öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etmək (ictimai birliklərə aid deyil);
- Məcburi qaydada audit keçirmək (yalnız fondlar üçün).

## Hissə 6: QHT-lərin ləğvi

### 6.1. QHT-nin ləğvinə dair qanunvericilik

Azərbaycan Respublikasında qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatının ləğv edilməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanun, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında qanun, habelə Azərbaycan Respublikasının digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

### 6.2. QHT-nin fəaliyyətinin bir illik məcburi dayandırılması

QHT-nin məhkəmə qərarı ilə ləğv edilməsi onun fəaliyyətinin məcburi dayandırılmasından fərqlidir. Qanuna əsasən, məhkəmənin qərarı əsasında qeyri-hökumət təşkilatının fəaliyyəti dayandırıla bilər. Belə ki, məcburi ləğvetmə ilə bərabər, qeyri-hökumət təşkilatının, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması əsasları aşağıdakılardır:

- qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi fövqəladə vəziyyətin[1] tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törətdikdə
- qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan

[1]"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının qanunun (8 iyun 2004-cü il, № 681-IIQ) 1-ci maddəsinə əsasən, fövqəladə vəziyyət "Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin konstitusion hüquq və azadlıqlarının, habelə mülkiyyət formasından asılı olmayaraq, bütün hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin bu qanun ilə müəyyən edilmiş qaydada məhdudlaşdırılmasına və onların üzərinə əlavə vəzifələr qoyulmasına yol verən, eləcə də müvafiq icra hakimiyyəti orqanları və yerli özünüidarə orqanlarının, onların vəzifəli şəxslərinin fəaliyyətini tənzimləyən xüsusi hüquqi rejimdir".

qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda

- qeyri-hökumət təşkilatının icra orqanı tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması müəyyən edildikdə.[2]

İlk iki bənddə nəzərdə tutulmuş hallarda qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması barədə məhkəməyə müraciət Ədliyyə Nazirliyi tərəfindən, 3-cü bənddə nəzərdə tutulmuş halda isə qeyri-hökumət təşkilatının üzvləri tərəfindən edilir[3].

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.[4]

Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilən normativ hüquqi akt ilə tətbiq edilir[5] və dərhal kütləvi informasiya vasitələri ilə elan olunmalı, rəsmi qaydada dərc edilməlidir.[6]

Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə vəziyyətin qüvvədə olma müddəti 60 gündən artıq ola bilməz və bu müddət bitdikdən sonra fövqəladə vəziyyətin qüvvədə olma müddəti bitmiş hesab olunur. Bu müddət ərzində fövqəladə vəziyyətin tətbiqində nəzərdə tutulan məqsədlərə nail olunmazsa, onun qüvvədə olma müddəti 60 gündən çox olmayan müddətə artırıla bilər.[7] Fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şərait təsbit olunmuş müddət ərzində aradan qaldırıldıqdan sonra Azərbaycan Respublikasının Prezidenti fövqəladə vəziyyəti tam

---

[2]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında"Azərbaycan Respublikası Qanunu, maddə 31.3.

[3]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında"Azərbaycan Respublikası Qanunu, maddə 31.6.

[4]Azərbaycan Respublikasının Konstitusiyası, maddə 112.

[5] "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, 19 iyul 2004-cü il, № 90, maddə 2.1.

[6]“Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu, maddə 4.

[7]“Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanunu, maddə 6.

və ya qismən ləğv edir və müvafiq ərazinin əhalisinə bu barədə dərhal kütləvi informasiya vasitələri ilə məlumat verilir.[8]

Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə Azərbaycan Respublikasının Prezidenti tərəfindən fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törədən siyasi partiyaların və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dayandırılması nəzərdə tutula bilər.[9]

## Hissə 7: Yenidən təşkil edilmə

Qeyri-hökumət təşkilatının yenidən təşkil edilməsi onun fəaliyyətinə xitam verir[10]. Yenidən təşkil edilmə birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formalarında baş tuta bilər və müvafiq dəyişikliklər Ədliyyə Nazirliyi tərəfindən[11] dövlət reyestrinə daxil edildiyi andansayılır.[12] Yenidən təşkil edilmə təsisçilərin (iştirakçıların) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər. Qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir.[13] Belə hallarda məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır.[14]

Yenidən təşkil edildikdə hüquq varisliyi ilə bağlı olan məsələlər Mülki Məcəllədə nəzərdə tutulmuş qaydada[15] təhvil aktına və ya bölünmə balansına uyğun həll olunur. Təhvil aktında və bölünmə balansında yenidən təşkil edilmiş hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərinin hamısı, o cümlədən tərəflərin mübahisə etdikləri öhdəliklər üzrə hüquqi varislik haqqında müddəalar olmalıdır.[16]

Hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı, yenidən təşkil

---

[8]"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 7.
[9]"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 8.0.13.
[10]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondler) haqqında" Qanunun 19.7-ci maddəsinə əsasən xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.
[11] "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 oktyabr 2000-ci il, № 401.
[12]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunu, maddə 18, 19.
[13]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 55.
[14]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 55.3.
[15]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının qanunu, maddə 19.6.
[16]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 56, 57.

məhkəmənin qərarı ilə həyata keçirildiyi hallarda isə kənar idarəçi hüquqi şəxsin yenidən təşkili barəsində onun *kreditorlarına yazılı bildiriş* göndərməyə borcludurlar. Belə hallarda kreditorların hüquqi şəxsin borclu olduğu öhdəliklərə xitam verilməsini və ya onların vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etməyə ixtiyarı var.[17]

[17] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 58.

**Hissə 8: Məcburi ləğvetmə**

Məcburi ləğvetmə yalnız məhkəmə qərarı əsasında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanunda göstərilən hallarda tətbiq oluna bilər.

Məhkəmə qaydasında ləğv etmə aşağıdakı hallarda baş verə bilər:

1. Hüquqi şəxslər, o cümlədən QHT-lər, yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda ləğv edilə bilərlər.[18]

2. QHT-lər lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirdikdə və ya qanunvericiliyi digər şəkildə dəfələrlə və ya kobudcasına pozduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda məhkəmənin qərarı ilə ləğv edilə bilərlər.[19]

3. QHT-yə **bir il ərzində ikidən çox** yazılı surətdə **xəbərdarlıq** və ya pozuntuların aradan qaldırılması haqqında **göstəriş** verildiyi halda qeyri-hökumət təşkilatı məhkəmənin qərarı ilə ləğv edilə bilər. [20] Həmin xəbərdarlıqlar və ya göstərişlər Ədliyyə Nazirliyi tərəfindən[21] “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” qanunun məqsədlərinə zidd olan hərəkətlərə yol verildiyi halda verilə bilər. Hüquqi şəxslərin dövlət reyestri üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya yanlış məlumatların verilməsinə görə də qeyri-hökumət təşkilatına xəbərdarlıq edilir. [22] Qeyri-hökumət təşkilatı həmin xəbərdarlıqdan və ya göstərişdən məhkəmə qaydasında şikayət vermək hüququna malikdir.[23]

Dövlət reyestri üçün zəruri olan məlumatlar aşağıdakılardır:

- qurumun adı;
- qurumun hüquqi ünvanı;

---

[18]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 59.2.2.
[19]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 59.2.3.
[20]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar)" haqqında Azərbaycan Respublikası Qanunu, maddə 31.4.
[21] "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 oktyabr 2000-ci il, № 401.
[22]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında"Azərbaycan Respublikası Qanunu, maddə 31.1, 31.2, 31.2-1.
[23]"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında”Azərbaycan Respublikası Qanunu , maddə 31.3.

- qurumun təşkilati-hüquqi forması;
- maliyyə ili;
- qeyri-kommersiya qurumunun qeydiyyat nömrəsi;
- qurumun hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri; təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar;
- qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;
- hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı haqqında məlumatlar[24];
- qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi, fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar.

## 8.1. Cinayət-hüquqi tədbir kimi məcburi ləğvetmə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən QHT-lərə cinayət-hüquqi tədbirlər tətbiq oluna bilər və məcburi ləğvetmə bu tədbirlərin bir növüdür. QHT-nin belə ləğv edilməsi onun "xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilən cinayətlə əlaqədar onun mövcudluğuna və fəaliyyətinə, hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsindən ibarət müstəsna cinayət-hüquqi tədbirdir".[25]

QHT-ni təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, QHT-nin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, QHT-nin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, və ya bu şəxslərtərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində QHT-nin işçisi tərəfindən törədilən cinayətlərə görə QHT ləğv edilə bilər[26].

Cinayət Məcəlləsinə əsasən QHT-lər aşağıdakı əməllərin törədilməsinə görə ləğv edilə bilərlər:

- İnsan alveri;
- Məcburi əmək;
- Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma;

[24]Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında"Azərbaycan Respublikası Qanunu, maddə 14.
[25]Azərbaycan Respublikasının Cinayət Məcəlləsi,maddə 99-8.1.
[26]Azərbaycan Respublikasının Cinayət Məcəlləsi,maddə 99-4.1.

- Cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə yaxud sərəncam vermə;
- Terrorçuluq;
- Terrorçuluğu maliyyələşdirmə;
- Kompüter informasiyasına qanunsuz olaraq daxil olma;
- Elektron-hesablayıcı maşınlar (EHM) üçün ziyan verici proqramlar yaratma, onlardan istifadə etmə və ya onları yayma;
- Elektron hesablayıcı maşınların, EHM sisteminin və ya onların şəbəkələrinin istismarı qaydalarını pozma;
- Vəzifə səlahiyyətlərindən sui-istifadə;
- Rüşvət alma (passiv rüşvətxorluq);
- Rüşvət vermə (aktiv rüşvətxorluq);
- Vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri);
- Vəzifə saxtakarlığı;
- İnsan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yayma;
- Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı həyata keçirilən tədbirlər haqqında məlumatları yayma.

QHT-nin ləğv edilməsi onun mütəmadi olaraq cinayətlərin törədilməsində və ya cinayətin izlərinin, cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın gizlədilməsində istifadə edildikdə və ya onun əmlakının yarıdan çox hissəsi müsadirə edilməli əmlakdan ibarət olduqda tətbiq olunur.

QHT cinayət-hüquqi tədbir təyin edilərək ləğv edildikdə ona əlavə iki yüz min manat miqdarında cərimə təyin olunur (bu məbləğ QHT-nin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz)[27].

QHT-lərə cinayət-hüquqi tədbirlər tətbiq olunduqda və bununla bağlı qərar qəbul olunduğu vaxtdan tam icra olunana və ya ləğv olunanadək QHT-nin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya QHT-nin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi qadağandır. Bundan əlavə, məhkəmə tərəfindən ləğv etmə qərarı qəbul olunanadək QHT yenidən təşkil olunduqda həmin qərar onun varisinə təyin olunur.

[27] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi,maddə 99-8.3.

## Hissə 9: Könüllü ləğvetmə

Məhkəmənin məcburi qərarı əsasında keçirilən ləğvdən fərqli olaraq, hər hansı bir ictimai birliyin və ya fondun öz iradəsi əsasında ləğv olunması könüllü sayılır. Könüllü ləğvetməaşağıdakı hallarda baş verə bilər:

1. İctimai birliklərin və fondların təsisçilərinin və ya onların nizamnaməsi ilə vəkil edilən orqanının qərarı ilə;
2. İctimai birliklərin və fondların mövcudluğu üçün nəzərdə tutulan müddətin bitməsi ilə;
3. İctimai birliklərin və fondların yaranması zamanı qarşıya qoyulan məqsədlərə nail olunması ilə əlaqədar[28].

Hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı bu barədə dövlət qeydiyyatını həyata keçirən orqana[29] ləngimədən məlumat verməyə borcludurlar. Həmin orqan isə hüquqi şəxsin ləğv prosesində olduğu barədə məlumatları hüquqi şəxslərin dövlət reyestrinə daxil edir.[30]

QHT-nin ləğvi haqqında qərar qəbul etmiş QHT-nin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı *ləğvetmə komissiyasını (təsviyəçini)* təyin edir və Mülki Məcəlləyə uyğun olaraq ləğvetmə qaydasını və müddətlərini müəyyənləşdirir. Ləğvetmə komissiyasının təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Ləğvetmə komissiyası ləğv edilən hüquqi şəxsin adından məhkəmədə çıxış edir.[31]

Hüquqi şəxsin cari fəaliyyətinə rəhbərlik edən icra orqanı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatı (aktiv və passivlərin vəziyyəti barədə) ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl qəbul edir və ya belə bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirir. Hüquqi şəxsin icra orqanı bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirdikdə iştirakçıların ümumi yığıncağı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olub-

---

[28]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 59.2.1.

[29]Həmin vəzifələri Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, onların rayon (şəhər), Azərbaycan Respublikasının Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, habelə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi öz səlahiyyətləri hüdudlarında həyata keçirirlər ("Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, № 386, 25 avqust 2000-ci il).

[30]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 60.1.

[31]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 60.2 və 60.3.

olmamasını təsdiq etmək üçün müstəqil auditor cəlb edə bilər. Müstəqil auditor hüquqi şəxsin ödəmə qabiliyyətinin olmasını öz rəyi ilə təsdiq etdikdə həmin rəy bəyanata bərabər tutulur.[32]

Ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 10 gün müddətində hüquqi şəxsin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbuat orqanlarında[33] onun ləğv edilməsi və *kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir*. Bu məlumat hər dəfə 15-20 gün fasilə ilə daha iki dəfə eyni qaydada dərc edilir. Bu müddət ləğvetmə haqqında məlumatın dərc edildiyi gündən etibarən *iki aydan az ola bilməz*.

QHT-nin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən 15 gün müddətində ərizə ilə Ədliyyə Nazirliyinə müraciət etməlidir[34]. Ərizəyə aşağıdakı sənədlər[35] əlavə olunur:

- Ləğvetmə qərarı;
- Ödəmə qabiliyyətinin olmasına dair Bəyanat;
- Hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında mətbu nəşrdə ilk məlumatın dərc olunmasını təsdiq edən sənəd;
- Hüquqi şəxsin möhürü.

Təqdim edilmiş sənədlər qanununvericiliyin tələblərinə zidd olmadıqda 5 gün müddətinə hüquqi şəxsin ləğvetmə prosesində olması barədə qeyd reyestrə daxil edilir[36]. Bundan sonra QHT tərəfindən sənədlərin tərtibi zamanı üzərində *"ləğv prosesindədir"* yazılmış möhürdən istifadə olunur və bütün sənədlərdə QHT adından sonra "ləğv prosesindədir" sözləri əlavə edilir.

Ləğvetmə komissiyası kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə hüquqi şəxsin ləğvi haqqında kreditorlara bildiriş göndərir.[37]

---

[32]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 59.21.

[33]Qurumların dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsinə dair, habelə qurumların təşkili və fəaliyyəti ilə əlaqədar dərc edilməsi qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatlar ümumi tanışlıq üçün dövlət qəzetində dərc edilir.(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli, 70 nömrəli qərarı ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi qaydaları", maddə 6.6).

[34]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun, maddə 16.1.

[35]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun, maddə 16.1-2.

[36]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanun, maddə 16.1-2.

[37]Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə61.3

Həmin iki ay müddət başa çatdıqdan sonra 10 gün müddətində ləğvetmə komissiyası *aralıq ləğvetmə balansı* tərtib edir. Balansa ləğv edilən hüquqi şəxsin əmlakının tərkibi, kreditorların irəli sürdükləri tələblərin siyahısı, habelə bu tələblərə baxılmasının nəticələri haqqında məlumatlar daxil edilir. Aralıq ləğvetmə balansını hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı təsdiq edir.[38]

Kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası *ləğvetmə balansını* tərtib edir. Həmin balansı hüquqi şəxsin ləğvi haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı təsdiq edir. Ləğvetmə komissiyası təsdiq olunmuş ləğvetmə balansını hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən icra hakimiyyəti orqanına göndərir.[39]

### 9.1. Fondların ləğv edilməsi

Fond yalnız maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə qərarı ilə ləğv edilə bilər.[40] Qeyri-hökumət təşkilatları haqqında qanuna əsasən, Fondun Himayəçilik Şurası fondun ləğvetmə və ya yenidən təşkiletmə haqqında qərarının qəbulunu həyata keçirir.[41]

Fondlar o cümlədən aşağıdakı hallarda ləğv edilə bilər:

- fondun əmlakı onun məqsədlərinin həyata keçirilməsinə kifayət etmədikdə və lazımi əmlakın əldə edilməsi ehtimalı real olmadıqda;
- fondun məqsədlərinə çatmaq mümkün olmadıqda, bu məqsədlər isə lazımi şəkildə dəyişdirilə bilmədikdə;
- öz fəaliyyətində fond nizamnamədə nəzərdə tutulan məqsədlərdən yayındıqda.[42]

## Hissə 10: QHT-nin reyestrdən çıxarılması

Hüquqi şəxsin ləğvi bu barədə qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan başa çatmış, hüquqi şəxs isə mövcudluğuna son qoymuş sayılır.[43] Bunun üçün

[38] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 61.5.
[39] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 61.10.
[40] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 116.2.
[41] "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında"qanun, maddə 27.2.
[42] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 116.2.
[43] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 61.12.

QHT ləğv edildikdə və ləğvetmə tədbirləri həyata keçirildikdən sonra onların reyestrdən çıxarılması barədə Ədliyyə Nazirliyinə[44]**ərizə** ilə müraciət edilməlidir.[45]

Müraciət etmədikdə heç bir cərimə nəzərdə tutulmasa da, QHT reyestrdə qalır və hesabatlarını təqdim etmək məsuliyyətini daşıyır. Qeyd etdiyimiz kimi, dövlət reyestri üçün zəruri olan məlumatların təqdim edilməməsinə görə qeyri-hökumət təşkilatına xəbərdarlıq edilir.[46]Həmçinin dövlət reyestrinə yanlış məlumatların verilməsinə görə fiziki şəxslər yeddi yüz manat miqdarında, hüquqi şəxslər dörd min manat miqdarında cərimə edilir.[47]

Ləğvetmə haqqında ərizə təsisçilər, yaxud ləğvetmə komissiyasının səlahiyyətli üzvləri tərəfindən imzalanır və təqdim edilir.[48] Ərizə surəti ilə birlikdə təqdim edilir; əsli Ədliyyə Nazirliyində[49] saxlanılır, surəti isə Ədliyyə Nazirliyi tərəfindən ərizənin əslinin qəbul edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsə qaytarılır. Ərizənin qəbul edilməsi hər hansı digər formada da təsdiq oluna bilər.[50]

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
- Ləğvetmə balansı;
- Qalıq əmlakın istifadə edilməsi planını əks etdirən hesabatı təsdiq edən sənəd;
- Qurumun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və nizamnaməsinin (əsasnaməsinin) əsli və üzərində “ləğv prosesindədir” yazılmış möhürü;
- Hüquqi şəxs yenidən təşkil formasında ləğv edildikdə (vergi orqanları tərəfindən qəbul edilməsi təsdiq olunmuş balans və ya vergi bəyannaməsi və vergi orqanlarının son vergi yoxlamasının nəticələri barədə məlumat istisna olmaqla) müvafiq olaraq təhvil aktı və ya balansının surəti[51].

[44]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı, 12 aprel 2004-cü il, № 48.
[45]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.
[46]“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu, maddə 31.2-1.
[47]Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Maddə 200-1.
[48]“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.3.
[49]Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə bölgə orqanları, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi öz səlahiyyətləri daxilində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası prezidentinin fərmanı, 12 aprel 2004-cü il, № 48.
[50]“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.4.
[51]“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.2.

Ləğvetmə barədə zəruri sənədlər təqdim edildikdən sonra Ədliyyə Nazirliyi həmin sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğunu yoxlayır və çatışmazlıq aşkar edilmədikdə, ərizəni aldığı vaxtdan **7 gün müddətində** qurumun reyestrdən çıxarılması barədə qərar qəbul edir.[52]

Təqdim olunmuş sənədlərdə çatışmazlıq aşkar edildiyi halda, bu barədə müraciət etmiş şəxslərə yazılı məlumat verilir və çatışmazlığın aradan qaldırılması tələb olunur. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra Ədliyyə Nazirliyi **7 gün** müddətdən gec olmayaraq qurumun reyestrdən çıxarılması haqqında qərar qəbul edir və bu barədə müraciət etmiş şəxslərə məlumat verir. Qurumun ləğv edilməsi barədə reyestrdə müvafiq qeydlər aparılır. Çatışmazlıqların aradan qaldırılması barədə məlumat verilmədikdə, qurum 60 gün ərzində reyestrdən çıxarıla bilməz.[53]

## Hissə 11: QHT-nin vergi orqanlarındaqeydiyyatdan çıxarılması

QHT-lərin ləğvi hallarında uçotdan çıxarılma vergi ödəyicisinin müraciətinə əsasən həyata keçirilir. Vergi ödəyicisi ləğv baş verdiyi gündən 40 gün müddətində vergi uçotunda olduğu vergi orqanına ərizə verməlidir və müraciət etdiyi gündən sonra 40 gün müddətində həmin vergi orqanı uçotdan çıxarılmanı həyata keçirməlidir.[54] Uçotdan çıxarılma ödənişsiz həyata keçirilir.[55]

Ləğv edilən təşkilatın vergi öhdəliklərini ləğvetmə komissiyası təşkilatın pul vəsaiti və ya əmlakının satışından əldə edilən gəlir hesabınayerinə yetirir. Ləğvetmə komissiyası təşkilatın filiallarının və ya başqa nümayəndəliklərinin vergi öhdəliyini də yerinə yetirir.[56]

### 11.1. VÖEN-nin müvəqqəti bağlanılması

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, vergi orqanında uçotda olan QHT-lər fəaliyyət göstərmədiyi müddət ərzində vergi hesabatlarını təqdim

[52]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.5.
[53]"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu, 12 dekabr 2003-cü il, № 560-IIQ, maddə 16.6-16.8.
[54]Azərbaycan Respublikasının Vergi Məcəlləsi, maddə 34.3, 34.4.
[55]Azərbaycan Respublikasının Vergi Məcəlləsi, maddə 34.5.
[56]Azərbaycan Respublikasının Vergi Məcəlləsi, maddə 79.

etməmək üçün vergi orqanlarında öz fəaliyyətini müvəqqəti dayandıra bilərlər. Buna bəzən “VÖEN-nin dondurulması”da deyilir.

Vergi ilində vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdıqda, həmin fəaliyyətin və ya əməliyyatların dayandırılması günündən gec olmayaraq vergi orqanına müvafiq arayış təqdim edilməlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir.[57] Bu müddət 5 ildən çox ola bilməz.

“Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının dayandırılması haqqında” arayışın forması bu Bələdçiyə əlavə edilir.

“VÖEN-nin dondurulması” QHT-ni yalnız vergi hesabatının təqdim edilməsi öhdəliyindən azad edir və digər hesabat öhdəliklərinə (Dövlət Sosial Müdafiə Nazirliyi, Statistika İdarəsi, Məşğulluq İdarəsi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və s.) təsir göstərmir. Eyni zamanda “VÖEN dondurulduqda” QHT bu müddətə qədərki dövrü əhatə edən kvartal üzrə vergi bəyannaməsini təqdim etməlidir.

## Hissə 12: Ləğv etmədən irəli gələn öhdəliklər və əmlak məsələləri

Yuxarıda göstərildiyi kimi, hüquqi şəxslərin ləğvetmə komissiyası kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında məlumatı dərc etdirir və kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Əgər ləğv edilən hüquqi şəxsdə olan pul vəsaiti kreditorların tələblərini ödəmək üçün yetərli deyildirsə, ləğvetmə komissiyası hüquqi şəxsin əmlakını açıq hərracda satır.Hərracın təşkili və keçirilmə qaydalarına uyğun olaraq açıq hərracda istənilən şəxs iştirak edə bilər.[58]
Əmlakın bölünməsi iştirakçının payına mütənasib şəkildə həyata keçirilir. Ləğv edilən hüquqi şəxsin iştirakçısı və ya iştirakçının vərəsəsi olmadıqda qalıq əmlak dövlətə verilir. Dövlətin adından həmin əmlakı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

İctimai birliklər, fondlar və ya hüquqi şəxslərin ittifaqları ləğv edildikdə onların əmlakı nizamnamələrində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.[59]

---

[57] Azərbaycan Respublikasının Vergi Məcəlləsi, maddə 16.3.
[58] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 415.
[59] Azərbaycan Respublikasının Mülki Məcəlləsi, maddə 114.3, 116.3 və 117.7.

**Əlavə I:**Qeydiyyat üçün nümunəvi ərizə forması

**Azərbaycan Respublikası**
**Ədliyyə Nazirliyinin**
**Qeydiyyat və Notariat Baş İdarəsinə**

____________________________________

____________________________________

____________________________________

(təsisçi və səlahiyyətli şəxs haqqında məlumatlar) tərəfindən

Ə R İ Z Ə

________________________________dövlət qeydiyyatına alınmasını xahiş edirik
(qurumun adı və təşkilati-hüquqi forması)

Qeydiyyata alınmaq üçün təqdim olunan faktlar və saxlanmağa verilən sənədlər düzgündür. Yanlış məlumat verilməsinə görə qanunla məsuliyyət müəyyən edilməsindən xəbərdarıq.

Qoşma: ______________________________________________
______________________________________________
______________________________________________

(saxlanmaq üçün qeydiyyat orqanına təqdim edilən sənədlər barədə məlumat)

Təsisçi (təsisçilər) və ya
səlahiyyətli şəxs (şəxslər): __________________________ _____________
(adı, soyadı, atasının adı) (imza)

**Qeyd:** Təsisçi fiziki şəxs (şəxslər) olduqda, onun (onların) soyadı, adı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi göstərilməlidir.

Təsisçi hüquqi şəxs olduqda, ərizədə onun (onların) adı, olduğu yer və qeydiyyat nömrəsi göstərilməlidir.

Ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda, ərizədə onun soyadı, adı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verilmə tarixi, vəkalətnamə haqqında məlumatlar göstərilməlidir.

Ərizə notariat qaydasında təsdiq edilməlidir.

Qoşulan sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə qeyd olunur.

**Əlavə II:** Hüquqi ünvana dair sənədin nümunəsi

**Azərbaycan Respublikası**
**Ədliyyə Nazirliyinin**
**Qeydiyyat və Notariat Baş İdarəsinə**

_________ __________ şəhəri

____________________ ünvanda yaşayan

Şəxsiyyət vəsiqəsi seriya ____№_____________

_________________________ tərəfindən

*(ərizəçinin adı, soyadı və atasının adı)*

ƏRİZƏ

Yazıb sizə bildirmək istəyirəm ki, yeni təsis edilmiş ___________________ İctimai Birliyinin hüquqi ünvanının mənə xüsusi mülkiyyət hüququ əsasında məxsus olan ___________________ ünvanda yerləşən (*mülkiyyəti təsdiq edən sənəd barədə məlumatı daxil et*) mənzildə yerləşməsinə etiraz etmirəm.

**Qoşma:** mülkiyyət hüququnu təsdiq edən sənədin notarial qaydada təsdiq edilmiş surəti.

İmza:___________________

Tarix: ___________________

***Qeyd: Ərizə mütləq notarial qaydada təsdiq olunmalıdır***

**Əlavə III:** Təsis protokolunun nümunəsi

**Azərbaycan-Koreya Məzunları**
**İctimai Birliyinin**
**Təsisçilərinin Ümumi Yığıncağının**

**1 SAYLI PROTOKOLU**

**________ şəhəri** **20 iyun 2009-cu il**

İştirak edirdilər:

1. Quluzadə Qulu Qulu oğlu
2. Rəcəbov RəcəbRəcəboğlu
3. Məmmədova Aytən Məmməd qızı

**Yığıncağa sədrlik edən**: Quluzadə Qulu Qulu oğlu
**Katib**: Rəcəbov RəcəbRəcəboğlu

**Gündəlikdə duran məsələlər:**
1. “Azərbaycan- Koreya Məzunları”İctimai Birliyinin təsis edilməsi;
2. “Azərbaycan-Koreya Məzunları”İctimai Birliyinin Nizamnaməsinin təsdiq edilməsi;
3. “Azərbaycan-Koreya Məzunları”İctimai Birliyinin sədrinin seçilməsi.

**Dinlənildi:**
1. Gündəlikdəki 1-ci məsələyə dair Quluzadə Qulu çıxış edərək, “Azərbaycan-Koreya Məzunları”İctimai Birliyinin təsis edilməsini təklif etdi. Məsələ iştirakçılar tərəfindən müzakirə olunaraq səsə qoyuldu.

Lehinə - 3
Əleyhinə - 0
Bitərəf - 0

2. Gündəlikdəki 2-ci məsələyə dair Rəcəbov Rəcəb çıxış edərək, “Azərbaycan-Koreya Məzunları”İctimai Birliyinin Nizamnaməsinin təsdiq edilməsini təklif etdi. Məsələ iştirakçılar tərəfindən müzakirə olunaraq səsə qoyuldu.

Lehinə - 3
Əleyhinə - 0
Bitərəf - 0

3. Gündəlikdəki 3-cü məsələyə dair Rəcəbov Rəcəb və Quluzadə Qulu çıxış edərək, "Azərbaycan-Koreya Məzunları"İctimai Birliyinin sədrinin Məmmədova Aytən olmasını təklif etdi. Məsələ iştirakçılar tərəfindən müzakirə olunaraq səsə qoyuldu.

Lehinə - 3
Əleyhinə - 0
Bitərəf - 0

**Qərara alındı:**

1. "Azərbaycan-Koreya Məzunları"İctimai Birliyi təsis edilsin;
2. "Azərbaycan-Koreya Məzunları"İctimai Birliyinin Nizamnaməsi təsdiq edilsin
3. Məmmədova Aytən "Azərbaycan-Koreya Məzunları"İctimai Birliyinin sədri seçilsin.

İştirakçıların imzaları:

1. _______________ Quluzadə Q.Q.

2._______________ Rəcəbov R.R.

3._______________ Məmmədova A. M.

Yığıncağın sədri: _______________ Quluzadə Q.

Katib: _______________ Rəcəbov R.

**Əlavə IV: QHT-nin könüllü ləğvi üçün mərhələlər sxemi**

| Mərhələ | | Müddət | Qərarı qəbul edən tərəf |
|---|---|---|---|
| 1 | QHT-nin ləğvi haqqında qərar ilə bağlı məlumatın dövlət qeydiyyatını həyata keçirən orqana[60] verilməsi. | QHT-nin ləğvi haqqında qərar qəbul edilməsindən 15 gün müddətində | QHT-nin ləğvi haqqında qərar qəbul etmiş QHT-nin təsisçiləri (iştirakçıları) və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı |
| 2 | Aralıq ləğvetmə balansının tərtib olunması | Kreditorların tələblərinin irəli sürülməsi müddəti bitdikdən sonra 10 gün müddətində | QHT-nin və ya məhkəmə qərarı ilə təyin edilmiş ləğvetmə komissiyası / təsviyəçisi |
| 3 | Ləğvetmə balansının tərtib edilməsi | Kreditorlar ilə hesablaşmalar başa çatdıqdan sonra 5 gün müddətində | QHT-nin və ya məhkəmə qərarı ilə təyin edilmiş ləğvetmə komissiyası / təsviyəçisi |
| 4 | Qurumun reyestrdən çıxarılması barədə qərarın qəbul edilməsi | 7 gün | Ədliyyə Nazirliyi |
| 5 | Reyestrdən çıxarılması barədə ərizədə çatışmazlıqların aradan qaldırılması | 60 gün ərzində | QHT |

[60] Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, onların rayon (şəhər), Azərbaycan Respublikasının Vergilər Nazirliyinə bilavasitə tabe olan vergi orqanları, habelə Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi, habelə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi.

| | | | |
|---|---|---|---|
| 6 | Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra qurumun reyestrdən çıxarılması haqqında qərarın qəbul edilməsi və bu barədə müraciət etmiş şəxslərə məlumatın verilməsi | 7 gün | Ədliyyə Nazirliyi |
| 7 | Vergi uçotunda olduğu vergi orqanına qeydiyyatdan çıxarılması haqqında ərizənin verilməsi | 40 gün müddətində<br><br>(ləğvetmə baş verdiyi gündən) | QHT |
| 8 | Vergi uçotundan çıxarılması | 40 gün müddətində | QHT-nin vergi uçotunda olduğu vergi orqanı |

**Əlavə V. Ödəmə qabiliyyətinin olmasına dair bəyanat nümunəsi**

**MÜƏSSİSƏNİN BLANKINDA**
**(MÖHÜRLÜ)**

**BƏYANAT**

Aktiv və passivlər göstərilməlidir.

**______________________ İctimai Birliyinin** (hüquqi ünvan:_____________;qeydiyyat nömrəsi:______________;VÖEN:________) kreditorların tələblərini 12 (on iki) ay ərzində ödəmək qabiliyyətindədir.

________________________

_________

İctimai Birliyinin

İdarə Heyətinin sədri

**Əlavə VI: Ləğvə dair elanın nümunəsi**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının ....................... tarixli Qərarı ilə dövlət qeydiyyatına alınmış _______________İctimai Birliyi ləğv olunduğunu elan edir.

Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra altmış gün ərzində Birliyə olan tələblərini aşağıda göstərilmiş ünvana bildirsinlər:

Ünvan:_______________________

Əlaqə telefonu:

**Əlavə VI: Ərizə nümunələri**

Qeyri-kommersiya qurumlarının və təhsil müəssisələrinin<br>dövlət qeydiyyatının aparılması<br>Qaydalarına Əlavə №14

______________________________<br>(dövlət qeydiyyatı orqanının adı)<br>______________________________<br>(qeyri-kommersiya qurumunun və təhsil müəssisəsinin adı,<br>təşkilati-hüquqi forması, qeydiyyat tarixi və nömrəsi)<br><br>______________________________<br>(ləğvetmə komissiyasının (təsviyəçi) üzvləri<br>barədə məlumat,  yaradıldığı tarix) tərəfindən

## ƏRİZƏ

______________________________________________________________

(qurumun adı)

ləğv prosesində olması ilə bağlı məlumatların dövlət reyestrinə daxil edilməsini xahiş edirik.Qeydiyyata alınmaq üçün təqdim olunan faktlar və saxlanmağa verilən sənədlər düzgündür. Yanlış məlumat verilməsinə görə qanunla məsuliyyət müəyyən edilməsindən xəbərdaram.

Qoşma: 1. ___________
2.___________
3.
4.

Ləğvetmə komissiyası (təsviyəçi):        (imza)             (tarix)

Qeyd: Ərizə hüquqi şəxsin möhürü ilə təsdiq edilir. Qoşulan sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir.

Azərbaycan Respublikası Vergilər Nazirinin
"15" yanvar 2008-ci il tarixli
0817040100022500 №-li əmri ilə təsdiq edilmişdir

**Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının dayandırılması haqqında**

# ARAYIŞ

**1.arayışın təyinatı**

Arayışın doldurulma səbəbini lazımi xanada X işarə etməklə göstərin

| | | | |
|---|---|---|---|
| 1.1 | vergi ödəyicisinin fəaliyyətini dayandırması | ☐ | |
| 1.2 | vergi ödəyicisinin filialının, nümayəndəliyinin və ya digər təsərrüfat subyektinin (obyektinin) fəaliyyətini dayandırması | ☐ | |

**2.arayışın təqdim edildiyi vergi orqanı**

| | | |
|---|---|---|
| 2.1 | vergi orqanının adı | |

**3. vergi ödəyicisi və ya onun filialı, nümayəndəliyi və ya digər təsərrüfat subyekti (obyekti) haqqında məlumat**

| | | |
|---|---|---|
| 3.1 | vergi ödəyicisinin VÖEN-i | |
| 3.2 | vergi ödəyicisinin adı | |
| 3.3 | filial, nümayəndəlik və ya təsərrüfat subyektinin kodu | - |
| 3.4 | filial, nümayəndəlik və ya təsərrüfat subyektinin adı | |

**4. arayışın məzmunu**

4.1. Bu ərizənin 3-cü bölməsində göstərilən vergi ödəyicisinin (filialın, nümayəndəliyin, təsərrüfat subyektinin (obyektinin)) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının müvəqqəti olaraq dayandırılması barədə vergi ödəyicisi tərəfindən qərar qəbul edilmişdir. Bu qərara əsasən fəaliyyətin dayandırılmasının başlanma və bitmə tarixlərini Sizə bildirirəm

4.2 fəaliyyətin və əməliyyatların dayandırıldığı tarix: gün __ ay __ il 2 0 __ __

4.3. fəaliyyətin və əməliyyatların bərpa ediləcəyi tarix: gün __ ay __ il 2 0 __ __

4.4 fəaliyyət dayandırıldığı dövrdə muzdlu işçilərə əmək haqqı ödənilib-ödənilməməsi (lazımi xanada X işarə edin) — 4.4.1 hə ☐ 4.4.2 yox ☐

**5.arayışı təqdim edən şəxs (vergi ödəyicisi və ya bölmənin rəhbəri)**

| | | |
|---|---|---|
| 5.1 | soyadı | |
| 5.2 | adı | |
| 5.3 | atasının adı | |
| 5.4 | arayışın doldurulma tarixi | 2 0 |

5.5 arayışı dolduran şəxsin imzası ______________________

**6.vergi orqanının qeydləri**

arayışda göstərilənlərin düzgünlüyünü yoxladı (vergi orqanının vəzifəli şəxsi)

| | | |
|---|---|---|
| 6.1 | soyadı | |
| 6.2 | adı | |
| 6.3 | atasının adı | |

## Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil

### Ümumİ müddəalar

**Maddə 1. Bu Qanunun məqsədi**

1.1. bu Qanun ictimai birliklərin və fondların, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin yaradılması və fəaliyyət göstərilməsi ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Bu Qanunda "qeyri-hökumət təşkilatı" anlayışına ictimai birliklər və fondlar daxildir.

1.3. Bu Qanun hüquqi şəxslər kimi qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.

1.4. Bu Qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli özünüidarə orqanlarına, habelə bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara və başqa qanunlarla tənzimlənən digər qeyri-kommersiyatəşkilatlarına şamil edilmir.

**Maddə 2.Qeyri-hökumət təşkilatı**

2.1. **İctimai birlik** - təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatdır.

2.2. **Fond** - üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədlər daşıyan qeyri-hökumət təşkilatdır.

2.2-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri - Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış qeyri-kommersiya

hüquqi şəxsin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumlarıdır.

2.3. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə qadağan olunmamış məqsədlər üçün yaradıla və fəaliyyət göstərə bilər. Məqsədi və ya fəaliyyəti Azərbaycan Respublikasının konstitusiya quruluşunu və dünyəvi xarakterini zorakılıqla dəyişdirməyə, ərazi bütövlüyünü pozmağa, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməyə, irqi, milli və dini ədavəti qızışdırmağa yönəlmiş qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında filial və ya nümayəndəliklərinin yaradılmasına və fəaliyyətinə yol verilmir.

2.4. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz. Azərbaycan Respublikasının seçki qanunvericiliyinə uyğun olaraq qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri, Milli Məclisə seçkiləri və bələdiyyələrə seçkiləri müşahidə edə və exit-poll həyata keçirə bilərlər. Xarici hüquqi şəxslər Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və bələdiyyə seçkiləri zamanı exit-polla əlaqədar tədbirlərdə yalnız Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edə bilərlər. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunlarında və öz nizamnaməsində nəzərdə tutulmuş qaydada hüquqi normativ aktların təkmilləşdirilməsi təklifləri ilə çıxış edə bilər.

**Maddə 3. Qeyri-hökumət təşkilatının adı və olduğu yer**

3.1. Qeyri-hökumət təşkilatının onun təşkilati-hüquqi formasını və fəaliyyətinin xarakterini göstərən adı olmalıdır. Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.

3.2. Qeyri-hökumət təşkilatının olduğu yer onun nizamnaməsində göstərilmiş hüquqi ünvanı ilə müəyyən edilir.

3.3. Qeyri-hökumət təşkilatının hüquqi ünvanı dəyişdikdə müvafiq icra hakimiyyəti orqanına bu barədə 7 gün müddətindən az olmamaq şərti ilə yazılı məlumat verilməlidir.

**Maddə 3-1.Qeyri-hökumət təşkilatının rəmzləri**

Qeyri-hökumət təşkilatı bayraq, emblem və sair rəmzlərə malik ola bilər. Təşkilatın rəmzləri Azərbaycan Respublikasının və xarici dövlətlərin dövlət rəmzləri, habelə dövlət orqanlarının, beynəlxalq təşkilatların və digər qurumların rəmzləri ilə eyni olmamalı, qanunla qorunan əmtəə nişanlarını təqlid etməməlidir.

## II fəsil

## Qeyri-hökumət təşkilatlarının təşkilati-hüquqi formaları, növləri və iştirakçıları

**Maddə 4. Qeyri-hökumət təşkilatlarının təşkilati-hüquqi formaları**

Qeyri-hökumət təşkilatları bu Qanunla müəyyən edilmiş təşkilati-hüquqi formalarda təsis oluna bilərlər.

**Maddə 5. Qeyri-hökumət təşkilatlarının növləri**

Qeyri-hökumət təşkilatları daimi əsaslarla və ya konkret məqsədlərə nail olmaq üçün təsis oluna bilərlər.

**Maddə 6. Qeyri-hökumət təşkilatlarının fəaliyyət ərazisi**

6.1. Qeyri-hökumət təşkilatları Azərbaycan Respublikasında ümumazərbaycan, regional və yerli statusla təsis oluna və fəaliyyət göstərə bilərlər. Qeyri-hökumət təşkilatının fəaliyyət ərazisi təşkilat tərəfindən müstəqil müəyyən olunur.

6.2. Ümumazərbaycan qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir. Regional qeyri-hökumət təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının iki və ya artıq inzibati ərazi vahidini əhatə etməlidir. Yerli qeyri-hökumət təşkilatları bir inzibati ərazi vahidinin çərçivəsində fəaliyyət göstərirlər.

6.3. Beynəlxalq qeyri-hökumət təşkilatları - öz fəaliyyət dairəsi ilə Azərbaycan Respublikasının və ən azı başqa bir xarici dövlətinin ərazilərini əhatə edən ictimai birliklərdir.

**Maddə 7. Qeyri-hökumət təşkilatının filial və nümayəndəlikləri**

7.1. Dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması

tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

7.1-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər.

7.2. Qeyri-hökumət təşkilatının filialı həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilə və onun fəaliyyətini və ya fəaliyyətinin bir hissəsini həyata keçirə bilər.

7.3. Qeyri-hökumət təşkilatının nümayəndəliyi həmin təşkilatın olduğu yerdən kənarda təşkil edilir, onun maraqlarını təmsil edir və həmin maraqların müdafiəsini həyata keçirir.

7.4. Qeyri-hökumət təşkilatının filialı və nümayəndəliyi hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından, təsdiq etdiyi Əsasnamədə müəyyən edilmiş fəaliyyət predmetinə və vəzifələrinə uyğun, fəaliyyət göstərir. Filial və nümayəndəliklərin fəaliyyətinə görə onları yaradan qeyri-hökumət təşkilatı məsuliyyət daşıyır.

7.4-1. Qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində onu yaratmış təşkilatın adı, dövlət qeydiyyatı haqqında məlumatlar (qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, onun qeydiyyatını aparmış qurumun adı), filial və ya nümayəndəliyin hüquqi ünvanı, idarə edilməsi qaydası, rəhbərinin səlahiyyətləri, ləğv olunması qaydası göstərilməlidir.

7.5. Filial və nümayəndəliyin rəhbərləri qeyri-hökumət təşkilatı tərəfindən təyin edilir və qeyri-hökumət təşkilatı tərəfindən verilən səlahiyyət dairəsində fəaliyyət göstərir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər, habelə xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş qeyri-hökumət təşkilatlarının, eləcə də xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar. Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir.

**Maddə 8. Qeyri-hökumət təşkilatlarının iştirakçıları**

8.1. İctimai birliklərin iştirakçılarına təsisçilər, üzvlər və köməkçilər aiddir. Fondların iştirakçılarına təsisçilər və köməkçilər aiddir.

8.2. İctimai birliyin yetkinlik yaşına çatmamış üzvləri Azərbaycan Respublikasının mülki qanunvericiliyə əsasən hüquqlar əldə edir və vəzifələr daşıyır.

8.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının iştirakçıları ola bilər.

8.4. Qeyri-hökumət təşkilatlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalıdır və onlar üçün bərabər imkanlar yaradılmalıdır.

8.5. Bu Qanunun 8.4-cü maddəsində göstərilən tələb hər hansı cinsin xüsusi maraqlarının müdafiəsi ilə yaradılan qeyri-hökumət təşkilatlarına şamil edilmir.

**Maddə 9. Qeyri-hökumət təşkilatlarının təsisçiləri**

9.1. Qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri - 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

9.1-1. Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qeyri-hökumət təşkilatının təsisçisi və qanuni təmsilçisi ola bilərlər.

9.2. Qeyri-hökumət təşkilatlarının təsisçiləri bərabər hüquqlara malikdir. Onların qarşılıqlı hüquq və vəzifələrinin həcmi qeyri-hökumət təşkilatının təsis edilməsinə münasibətdə təsis müqaviləsi ilə (müqavilə bağlandıqda), qeyri-hökumət təşkilatının fəaliyyətində iştiraka münasibətində isə qeyri-hökumət təşkilatının nizamnaməsi ilə müəyyən edilir.

**Maddə 10. İctimai birliklərin üzvləri**

10.1. Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) ictimai birliyin üzvü ola bilər.

10.2. İctimai birliyin üzvləri bərabərhüquqludurlar. Onlar ictimai birliklərin rəhbər orqanlarına seçə və seçilə, fəaliyyətində iştirak edə, rəhbər orqanların fəaliyyətinə nəzarət edə, nizamnamə ilə nəzərdə tutulmuş digər hüquqlar daşıya bilərlər, eləcə də nizamnamə tələblərinə riayət etməlidirlər.

10.3. İctimai birliyin üzvlüyünün əldə edilməsi və üzvlüyə xitam verilməsi məsələləri nizamnamə ilə müəyyən edilir. Nizamnamə ictimai birliyin üzvlüyünə xitam verilməsindən birliyin daxilində və məhkəməyə şikayət etmə hüququna təminat verməlidir.

10.4. İctimai birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməlidir.

10.5. Qeyri-hökumət təşkilatlarının icra orqanları tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulmasına yol verilməməlidir. Qeyri-hökumət təşkilatlarının üzvləri ilə təşkilat arasında yaranan mübahisələr məhkəmə qaydasında həll olunur. Məhkəmə tərəfindən işə baxılarkən təşkilatın üzvlərinin hüquqlarının pozulduğu müəyyən edildikdə qeyri-hökumət təşkilatının fəaliyyəti məhkəmə qərarı ilə bu Qanunun 31.3-cü maddəsində nəzərdə tutulmuş müddətə dayandırıla bilər.

**Maddə 11. Qeyri-hökumət təşkilatlarının köməkçiləri**

Qeyri-hökumət təşkilatlarının köməkçilərinə nizamnamələrinə müvafiq olaraq qeyri-hökumət təşkilatının fəaliyyətində iştirak etməklə, ~~öz münasibətlərini qeyri-hökumət təşkilatı ilə təşkilatı cəhətdən rəsmiləşdirmədən~~ ona müxtəlif kömək və ya xidmətlər göstərməklə qeyri-hökumət təşkilatını dəstəkləyən fiziki və hüquqi (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) şəxslər aiddir. Köməkçilərin mövcudluğu və onların hüquqi statusu qeyri-hökumət təşkilatının təsis sənədləri və "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

## III fəsil

## Qeyri-hökumət təşkilatlarının yaradılması, yenidən təşkili və ləğv edilməsi

**Maddə 12. Qeyri-hökumət təşkilatının yaradılması**

12.1. Qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə mövcud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər.

12.1-1. Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır.

12.2. Qeyri-hökumət təşkilatının təsis edilməsi nəticəsində yaradılması təsisçilərin (təsisçinin) qərarı ilə həyata keçirilir. Bu halda təsis yığıncağı çağırılır və təşkilatın nizamnaməsi qəbul olunur.

12.3. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin dövlət qeydiyyatı həmin təşkilatlarla bağlanmış saziş əsasında həyata keçirilir. Sazişdə onun qüvvədə olma müddəti göstərilməlidir.

**Maddə 13. Qeyri-hökumət təşkilatının nizamnaməsi**

13.1. Qeyri-hökumət təşkilatının nizamnaməsində qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri, daimi və ya konkret məqsədlə təsis edildiyi, idarə olunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası, qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası, qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakından istifadə qaydası müəyyən edilməlidir.

13.2. Fondun nizamnaməsində həm də fondun "fond" sözü daxil edilmiş adı, onun olduğu yer, fondun məqsədi, onun orqanları, o cümlədən Himayəçilik Şurası və onların formalaşma qaydası, fondun vəzifəli şəxslərinin təyin edilməsi və onların azad edilməsi və fondun ləğv edildiyi halda onun əmlakının müqəddəratı haqqında məlumatlar olmalıdır.

13.3. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.

**Maddə 14. Qeyri-hökumət təşkilatının nizamnaməsinə dəyişikliklərin edilməsi**

14.1. İctimai birliyin nizamnaməsinə dəyişikliklər onun ali idarəetmə orqanının qərarı ilə edilə bilər. Fondun nizamnaməsinə dəyişikliklərin edilməsi fondun Himayəçilik Şurası tərəfindən və yalnız fondun məqsədləri istiqamətində edilə bilər.

14.2. Fondun nizamnaməsi fondun Himayəçilik Şurası tərəfindən bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun. Əgər fondun nizamnaməsinin dəyişilməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə gətirərsə, nizamnamədə dəyişikliklərin mümkünlüyü isə nəzərdə tutulmayıbsa, yaxud nizamnamə səlahiyyətli şəxslər tərəfindən dəyişilməyibsə, bu nizamnaməyə dəyişikliklərin edilməsi hüququ fondun Himayəçilik Şurasının ərizəsinə əsasən məhkəməyə mənsubdur.

14.3. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklər onların dövlət qeydiyyatına alındığı andan qüvvəyə minir.

**Maddə 15. İctimai birliyin təsis edilməsi haqqında bildiriş**

15.1. İctimai birliyin təsis edilməsi haqqında bildiriş onun təsis edilməsi haqqında qərarın qəbul olunduğu andan 30 gündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına yazılı müraciət vasitəsi ilə həyata keçirilir. İctimai birliyin rəhbəri tərəfindən imzalanmış müraciətə təsis protokolu da əlavə olunmalıdır.

15.2. Müvafiq icra hakimiyyəti orqanı ictimai birliyin təsis edilməsi haqqında bildirişi alan gün bildirişin daxil olmasını təsdiq edən sənədi ictimai birliyin nümayəndəsinə verir və ya poçt vasitəsilə göndərir.

**Maddə 16. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı**

16.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi şəxslərin qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

16.2. Qeyri-hökumət təşkilatı yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə edir.

16.3. Qeyri-hökumət təşkilatlarının və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin təsis sənədlərində qanunvericiliyə uyğunsuzluq aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanı həmin qurumlardan 30 gün müddətində təsis sənədlərinin qanunvericiliyə uyğunlaşdırılmasını tələb edir.

16.4. Qeyri-hökumət təşkilatları və xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri fəaliyyətini müvəqqəti olaraq dayandırması ilə bağlı müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilər.

**Maddə 17. Dövlət qeydiyyatına alınmasından imtina**

17.1. Qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatına alınmasından yalnız "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda imtina edilə bilər.

17.2. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından, imtinanın əsasları və təsis sənədlərin hazırlanmasında qanunvericiliyin pozulmuş müddəaları və maddələrini göstərilməklə, yazılı surətdə məlumat qeyri-hökumət təşkilatının nümayəndəsinə təqdim olunur.

17.3. Qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasından imtina, pozuntular aradan qaldırıldıqdan sonra sənədlərin dövlət qeydiyyatı üçün yenidən təqdim edilməsinə mane ola bilməz.

17.4. Qeyri-hökumət təşkilatın dövlət qeydiyyatına alınmasından imtinadan inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.

**Maddə 18. Qeyri-hökumət təşkilatının fəaliyyətinə xitam verilməsi**

Qeyri-hökumət təşkilatının fəaliyyətinə qeyri-hökumət təşkilatın yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ya qeyri-hökumət təşkilatının ləğv edilməsi yolları ilə xitam verilir.

**Maddə 19. Qeyri-hökumət təşkilatının yenidən təşkil edilməsi**

19.1. Qeyri-hökumət təşkilatı bu Qanunda nəzərdə tutulan qaydada yenidən təşkil edilə bilər. Qeyri-hökumət təşkilatının yenidən təşkili onun təsisçilərinin və ya təşkilatın nizamnamə ilə vəkil edilmiş orqanın qərarı ilə həyata keçirilə bilər.

19.2. Qeyri-hökumət təşkilatının yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formalarında həyata keçirilə bilər.

19.3. Qeyri-hökumət təşkilatının başqa təşkilatın ona qoşulma formasında yenidən təklif edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.4. Qeyri-hökumət təşkilatının ayrılma və bölünmə formalarında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən onlardan birinin ayrılması haqqında və ya bölünən təşkilatın fəaliyyətinə xitam verilməsi haqqında və yeni qeyri-hökumət təşkilatlarının təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.5. Qeyri-hökumət təşkilatının çevrilmə formasında təşkil edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən mövcud olan təşkilatın ləğvi və onun əsasında yeni təşkilatın təsis edilməsi haqqında qeydlərin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan sayılır.

19.6. Qeyri-hökumət təşkilatının yenidən təşkilindən sonra hüquq varisliyi ilə bağlı olan bütün məsələlər Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

19.7. Xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.

**Maddə 20. Qeyri-hökumət təşkilatının ləğvi**

Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının Mülki Məcəlləsində və hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ləğv edilə bilər. Qeyri-hökumət təşkilatı ləğv edildikdə həmin qurum tərəfindən əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması barədə məlumatlar və bu məlumatları təsdiq edən sənədlər hüquqi şəxslərin dövlət reyestrinə daxil olunması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.

**Maddə 21. Ləğv edilən qeyri-hökumət təşkilatının əmlakı**

Qeyri-hökumət təşkilatının ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

## IV fəsil

## Qeyri-hökumət təşkilatın fəaliyyəti

**Maddə 22. Qeyri-hökumət təşkilatının fəaliyyət növləri**

22.1. Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirə bilər.

22.2. Qeyri-hökumət təşkilatı əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölüşdürməyərək, yalnız təşkilatın yaradılması məqsədlərinə nail olmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirilə bilər. Belə fəaliyyət kimi qeyri-hökumət təşkilatının yaranma məqsədlərinə cavab verən, mənfəət gətirən mal və xidmət istehsalı və satışı, habelə qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi, əmanətçi kimi təsərrüfat cəmiyyətlərində, ortaqlıqlarda iştirakı qəbul edilir.

22.3. Qeyri-hökumət təşkilatı sahibkarlıq fəaliyyəti üzrə gəlir və xərclərin uçotunu aparır. Qeyri-hökumət təşkilatının məşğul ola bilən fəaliyyət növləri üçün hər bir məhdudiyyət yalnız qanunla müəyyən olunur.

22.4. Qeyri-hökumət təşkilatı peşəkar dini fəaliyyətlə məşğul ola bilməz.

**Maddə 23. Qeyri-hökumət təşkilatının əmlakı**

23.1. Qeyri-hökumət təşkilatının mülkiyyətində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

23.2. Qeyri-hökumət təşkilatı öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

23.3. Fondun əmlakını onun təsisçiləri (təsisçisi) tərəfindən verilən əmlak təşkil edir. Fond təsis olunduqdan sonra ona əmlak vermiş şəxs təsisçi hüququ qazanmır. Təsisçilər onların yaratdığı fondun öhdəlikləri üçün, fondlar isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

**Maddə 24. Qeyri-hökumət təşkilatının əmlakının formalaşdırılma mənbələri**

24.0. Qeyri-hökumət təşkilatının əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:

24.0.1. təsisçilərin və ya ictimai birliklərin üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

24.0.2. əmlak haqları və könüllü ianələri;

24.0.3. malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;

24.0.4. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

24.0.5. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;

24.0.6. qrantlar;

24.0.7. qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

**M a d d ə 24-1.İanələr və qrantlar**

24-1.1. İanə - qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona *Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, xarici hüquqi şəxsin filial və ya nümayəndəliyi (bu Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş sazişi bağlamış xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi) tərəfindən* bu Qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardımdır.

24-1.2. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi və ya vəd edilən ianə müqabilində, ianə verən şəxsə və ya hər hansı digər şəxsə birbaşa, yaxud dolayı yolla maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt verə, belə təkliflə çıxış edə və ya belə vəd verə bilməz.

24-1.3. Qeyri-hökumət təşkilatına, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinə ianə verən şəxs verdiyi və ya verəcəyi ianə müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa, yaxud dolayı yola maddi və sair nemət, hər hansı imtiyaz və ya güzəşt tələb edə və ya qəbul edə bilməz, belə təklifə və ya vədə razılıq verə bilməz.

24-1.4. İanə edilən pul vəsaitləri qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin bank hesabına köçürmə yolu ilə qəbul edilir. Nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri iki yüz manatadək ianəni nağd şəkildə qəbul edə bilər.

*24-1.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Barəsində məlumat təqdim edilməmiş ianələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.*

24-1.6. Qrantların verilməsi, alınması və istifadəsi ilə bağlı iqtisadi və hüquqi münasibətlər "Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

***M a d d ə  24-2.Qeyri-hökumət təşkilatı tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsi***

*24-2.1. Qeyri-hökumət təşkilatı tərəfindən bu Qanunun 24.0.3-cü maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsi və işlərin görülməsi müqavilə əsasında həyata keçirilir. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə qeydə alınması üçün qeyri-hökumət təşkilatı tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur.*

24-2.2. Müqavilə olmadan və ya qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.

## V fəsil

## Qeyri-hökumət təşkilatlarının idarə olunması

### Maddə 25. İctimai birliyin idarə olunmasının əsasları

25.1. İctimai birliyin strukturu, tərkibi, idarəetmə orqanlarının səlahiyyəti, formalaşdırılma qaydası və onların səlahiyyət müddəti, qərar qəbul etmə və ictimai birliyin adından çıxış etmə qaydaları bu Qanun və digər qanunlara müvafiq olaraq ictimai birliyin nizamnaməsi ilə müəyyən edilir.

25.2. İctimai birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi yığıncaqdır.

25.3. Ümumi yığıncaq ictimai birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

25.4. Ümumi yığıncağın əsas funksiyası onun marağı naminə yarandığı məqsədlərə riayət etməkdir.

25.5. Ümumi yığıncağın səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

25.5.1. ictimai birliyin nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;

25.5.2. ictimai birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;

25.5.3. ictimai birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;

25.5.4. illik hesabatın təsdiq edilməsi;

25.5.5. başqa təşkilatlarda iştirak;

25.5.6. ictimai birliyin yenidən təşkili və ləğv edilməsi.

25.6. İctimai birliyin təsisçilərinə və üzvlərinə ümumi yığıncağın yeri və vaxtı haqqında ən azı 2 həftə əvvəl məlumat verilməlidir. Ümumi yığıncaq yalnız birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə nizamnaməyə dəyişikliklər edə bilər. Ümumi yığıncağın qərarı yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir.

25.7. Ümumi yığıncaqda yazılı protokol aparılmalıdır. Protokol yığıncağın sədri və katibi tərəfindən imzalanır. Yığıncağın protokolu lazım gəldikdə bütün üzvlərə paylanmalıdır.

**Maddə 26. İctimai birliyin icra orqanı**

26.1. İctimai birliyin icra orqanı kollegial və (və ya) təkbaşına ola bilər. O, ictimai birliyin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və ictimai birliyin ali idarəetmə orqanına hesabat verir.

26.2. İctimai birliyin icra orqanı ictimai birliyin filiallarını yaradır və nümayəndəliklərini açır.

26.3. İctimai birliyin icra orqanının səlahiyyətinə ictimai birliyin başqa idarəetmə orqanlarının bu Qanun, digər qanunlar və ictimai birliyin nizamnaməsi ilə müəyyən edilən müstəsna səlahiyyətini təşkil etməyən bütün məsələlərin həlli aiddir.

26.4. İctimai birliyin səlahiyyət müddəti bitmiş icra orqanları tərəfindən təşkilatın fəaliyyəti ilə əlaqədar hər hansı qərarların qəbul edilməsinə və ya sənədlərin imzalanmasına yol verilmir.

**Maddə 27. Fondun idarə olunması**

27.1. Fondun idarəsini fondun Prezidenti və ya idarə heyəti həyata keçirirlər.

27.2. Fondun himayəçilik Şurası fondun nəzarət orqanıdır və fondun fəaliyyətinə, fondun başqa orqanları tərəfindən qərarların qəbul edilməsinə və onların yerinə yetirilməsinin təmin edilməsinə, fond vəsaitinin istifadə edilməsinə, fəaliyyətinə nəzarəti və nizamnaməyə dəyişikliklər edilməsini, ləğvetmə və ya yenidən təşkiletmə

haqqında qərarın qəbulunu həyata keçirir. Fondun Himayəçilik şurası öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.

27.3. Fondun Himayəçilik Şurasının formalaşma və fəaliyyət qaydası fondun təsisçiləri tərəfindən təsdiq edilmiş fondun nizamnaməsində müəyyən edilir.

## VI fəsil

## Qeyri-hökumət təşkilatları və dövlət hakimiyyəti orqanları

### Maddə 28. Dövlət hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları arasında əlaqə

Qeyri-hökumət təşkilatının hüquqları bütün dövlət orqanları tərəfindən qorunur. Qeyri-hökumət təşkilatları qanunvericilik çərçivəsində öz fəaliyyətini müstəqil olaraq həyata keçirmək hüququna malikdir. Dövlət hakimiyyət orqanları qeyri-hökumət təşkilatlarına maliyyə və başqa formalarda yardım edə bilərlər. Dövlət orqanlarında ictimai birliklərin strukturları yaradılmır.

### Maddə 29. Qeyri-hökumət təşkilatının fəaliyyətinə nəzarət

29.1. Qeyri-hökumət təşkilatı qanunvericiliyə müvafiq olaraq mühasibat uçotu aparır.

29.2. Qeyri-hökumət təşkilatının gəlirinin məbləği və strukturu, habelə onun əmlakı, xərcləri, işçilərin say tərkibi, əməyin ödənilməsi haqqında məlumatlar dövlət və ya kommersiya sirri ola bilməz.

29.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

29.4. Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edir. Bu hesabatların forması, məzmunu və təqdim edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

29.5. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri öz fəaliyyətinin şəffaflığını təmin etməlidirlər. Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri korrupsiya hüquqpozmalarının, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının

və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidirlər.

**Maddə 30.(Çıxarılıb)**

Maddə 30-1. **Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi**

30-1.1. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

30-1.2. Müvafiq icra hakimiyyəti orqanı qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi işinə aidiyyəti dövlət orqanlarının və digər qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etmək səlahiyyətinə malikdir.

30-1.3. Qeyri-hökumət təşkilatlarının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi üçün maneələr yaradan fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyırlar.

## VII fəsil

## Yekun müddəaları

**Maddə 31. Qeyri-hökumət təşkilatının məsuliyyəti**

31.1. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi bu Qanunun müddəalarından irəli gələn tələbləri pozduqda qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

31.2. Azərbaycan Respublikası qanunvericiliyinin, eləcə də nizamnamənin müddəalarından irəli gələn tələblərin pozulmasına görə qanunla məsuliyyət müəyyən olunmadığı hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeyri-hökumət

təşkilatına və ya xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə yazılı surətdə xəbərdarlıq edilir və pozuntuların 30 günədək müddətdə aradan qaldırılması haqqında göstəriş verilir.

31.3. Bu maddədə müəyyən olunmuş hallarda qeyri-hökumət təşkilatının, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyəti məhkəmə qərarı ilə bir ilədək müddətə dayandırıla bilər. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması əsasları aşağıdakılardır:

31.3.1. qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi fövqəladə vəziyyətin tətbiq edilməsinə səbəb olmuş şəraitin aradan qaldırılmasına maneçilik törətdikdə;

31.3.2. qeyri-hökumət təşkilatı, xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların müəyyən edilmiş müddətdə aradan qaldırılmamasına görə inzibati məsuliyyətə cəlb edildikdən sonra qurum tərəfindən həmin pozuntular aradan qaldırılmadıqda;

31.3.3. qeyri-hökumət təşkilatının icra orqanı tərəfindən təşkilatın üzvlərinin hüquqlarının pozulması müəyyən edildikdə.

31.4. Qeyri-hökumət təşkilatına, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə bir il ərzində ikidən çox yazılı surətdə xəbərdarlıq və ya pozuntuların aradan qaldırılması haqqında göstəriş verildiyi halda qeyri-hökumət təşkilatı, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər.

31.5. Qeyri-hökumət təşkilatı, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi qanunla müəyyən edilmiş məsuliyyət tədbirlərinin tətbiqi ilə əlaqədar inzibati qaydada və ya məhkəməyə şikayət etmək hüququna malikdir.

31.6. Bu Qanunun 31.3.1-ci və 31.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılması barədə məhkəməyə müraciət müvafiq icra hakimiyyəti orqanı tərəfindən, bu Qanunun 31.3.3-cü maddəsində nəzərdə tutulmuş halda isə qeyri-hökumət təşkilatının üzvləri tərəfindən edilir.

31.7. Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin fəaliyyətinin dayandırılmasına səbəb olmuş

pozuntular aradan qaldırıldıqda bu Qanunun 31.3.1-ci və 31.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda müvafiq icra hakimiyyəti orqanının, 31.3.3-cü maddəsində müəyyən olunmuş halda isə təşkilatın üzvlərinin müraciəti əsasında qurumun fəaliyyəti məhkəmənin qərarı ilə vaxtından əvvəl bərpa oluna bilər.

31.8. Qeyri-hökumət təşkilatı illik maliyyə hesabatını bu Qanunun 29.4-cü maddəsində müəyyən edilmiş müddətdə təqdim etmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin təşkilata yazılı surətdə xəbərdarlıq etməklə müvafiq hesabatın 30 gün müddətində təqdim edilməsinə dair göstəriş verir. Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyır.

**Maddə 32. Əvvəllər qeydiyyata alınmış qeyri-hökumət təşkilatlarının yenidən qeydiyyata alınması**

Bu Qanun qüvvəyə minməmişdən əvvəl dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikası hüquqi şəxslərinin Dövlət reyestrinə daxil edilməlidirlər.

**Maddə 33. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2000-ci il

№ 894-IQ

## Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### I fəsil

### Ümumi müddəalar

Maddə 1. **Qanunun təyinatı**

Bu Qanun Azərbaycan Respublikasının ərazisində hüquqi şəxslərin dövlət qeydiyyatının və dövlət reyestrinin aparılmasının hüquqi və təşkilati əsaslarını müəyyən edir.

Maddə 2. **Əsas anlayışlar**

2.0. Bu Qanunda aşağıdakı anlayışlardan istifadə edilir:

2.0.1. hüquqi şəxs - Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumdur;

2.0.2. xarici hüquqi şəxs - Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış hüquqi şəxsdir;

2.0.3. hüquqi şəxs statusu almaq istəyən qurum - hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət edən şəxs və ya şəxslər qrupudur;

2.0.4. nümayəndəlik - Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumdur;

2.0.5. filial - Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumdur;

2.0.6. təsis sənədləri - hüquqi şəxsin və bu Qanunda göstərilən digər müvafiq qurumların yaradılmasının və fəaliyyətinin hüquqi əsaslarını təşkil edən sənədlərdir;

2.0.7. hüquqi şəxslərin dövlət qeydiyyatı - Azərbaycan Respublikasının ərazisində hüquqi şəxs statusu almaq istəyən qurumların, habelə xarici hüquqi

şəxslərin Azərbaycan Respublikasının ərazisində yaratdıqları nümayəndəlik və ya filialların hüquq qabiliyyətinin təsdiq edilməsi, hüquqi statusunun müəyyənləşdirilməsi və onlar barəsində məlumatların (qeydlərin) hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsidir;

2.0.8. hüquqi şəxslərin dövlət reyestri - Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları, eləcə də Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəlik və filialları və digər qurumları barəsində məlumatlar (qeydlər) məcmusudur;

2.0.9. kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri - Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə bu cür müəyyən edilmiş qurumlardır;

2.0.10. yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət - Azərbaycan Respublikasının vətəndaşları və (və ya) Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs tərəfindən təsis edilən məhdud məsuliyyətli cəmiyyətdir;

2.0.11. yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı - təkmil sertifikata malik gücləndirilmiş elektron imza ilə təsdiq edilən və müvafiq icra hakimiyyəti orqanına elektron qaydada təqdim edilən ərizə və ona əlavə edilən sənədlər əsasında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatıdır;

2.0.12. yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin sürətli elektron dövlət qeydiyyatı - hüquqi ünvanı yeganə təsisçisi kimi çıxış edən fiziki şəxsin yaşayış yeri üzrə qeydiyyat ünvanı ilə eyni olan yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin bu Qanunun 5-1.3-cü və 5-1.7-ci maddələrinə uyğun olaraq real vaxt rejimində aparılan elektron dövlət qeydiyyatıdır;

2.0.13. elektron ünvan – bu Qanunun məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının informasiya sistemində məlumat və sənəd mübadiləsi üçün elektron dövlət qeydiyyatına alındığı andan hüquqi şəxsə verilən ünvandır.

Maddə 3. **Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanunvericilik**

Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, habelə Azərbaycan

Respublikasının digər qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 4. **Hüquqi şəxslərin dövlət qeydiyyatının və dövlət reyestrinin aparılmasının ümumi qaydaları**

4.1. Azərbaycan Respublikasının ərazisində hüquqi şəxs statusu almaq istəyən qurum, habelə xarici hüquqi şəxsin nümayəndəliyi və ya filialı dövlət qeydiyyatına alınmalı və dövlət reyestrinə daxil edilməlidir. Kommersiya təşkilatları, habelə xarici hüquqi şəxslərin nümayəndəlikləri və ya filialları yalnız dövlət qeydiyyatına alındıqdan sonra fəaliyyət göstərə bilərlər. Onların dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

4.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəlik və ya filialları və digər qurumları dövlət reyestrinə daxil edilməlidir.

*4.2-1. Xarici dövlətlərin qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycan Respublikasının ərazisində bir nümayəndəlik və ya filial yaradıla bilər.*

4.3. Hüquqi şəxs statusu almaq istəyən qurumların (yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı istisna olmaqla), xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məbləğdə və qaydada, kommersiya və qeyri-kommersiya hüquqi şəxslərinin xüsusiyyətləri nəzərə alınmaqla, dövlət rüsumu tutulur.

4.4. Dövlət qeydiyyatına alınmış hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və filialları, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin nümayəndəlik və filialları dövlət reyestrinə rüsumsuz daxil edilir. Dövlət reyestrində dəyişikliklər rüsumsuz aparılır.

4.5. Bu Qanunla müəyyən edilmiş müddətlər hesablanarkən yalnız iş günləri nəzərə alınır.

4.6. Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınması, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının və digər qurumlarının dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı Azərbaycan Respublikasının

müvafiq icra hakimiyyəti orqanına yanlış məlumatların təqdim edilməsinə yol verilmir.

## II fəsil
## Hüquqi şəxslərin dövlət qeydiyyatı

Maddə 5. **Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması barədə müraciət**

5.1. Hüquqi şəxs statusu almaq istəyən qurumun dövlət qeydiyyatına alınması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir.

5.2. Ərizə təsisçi (bir neçə təsisçi olduqda isə, bütün təsisçilər) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydasında təsdiqlənir.

5.3. Ərizədə aşağıdakılar göstərilir:

5.3.1. təsisçi (təsisçilər) fiziki şəxs olduqda - onun (onların) adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi;

5.3.2. təsisçi (təsisçilər) hüquqi şəxs olduqda - onun (onların) adı, olduğu yer və qeydiyyat nömrəsi;

5.3.3. ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda habelə onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi və vəkalətnamə haqqında məlumatlar.

5.3.4. müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ərizənin formasında müəyyən edilən digər məlumatlar.

5.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

5.4.1. təsis sənədləri – hüquqi şəxs statusu almaq istəyən qurumun təsisçisi (təsisçiləri) və ya onun (onların) səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi, habelə bu Qanunun məqsədləri üçün, həmin qurumun təsis edilməsi, nizamnaməsinin təsdiq edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar (təsis sənədləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş, habelə təsisçilər tərəfindən zəruri hesab edilən digər məsələləri əks

etdirməli və bütün təsisçilər (və ya onların səlahiyyətli nümayəndələri) tərəfindən imzalanmalıdır);

5.4.2. dövlət rüsumunun ödənilməsi haqqında sənəd;

5.4.3. təsisçi hüquqi şəxs olduqda - onun dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin notariat qaydasında təsdiq olunmuş surəti.

5.4.4. təsisçi fiziki şəxs olduqda - onun şəxsiyyətini təsdiq edən sənədin surəti;

5.4.4-1. qeyri-hökumət təşkilatının təsisçisi (təsisçiləri) və qanuni təmsilçisi (təmsilçiləri)*, habelə xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin qanuni təmsilçisi (təmsilçiləri)* Azərbaycan Respublikasında daimi yaşamaq hüququ olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduqda – onların daimi yaşamaq hüququnu təsdiq edən sənəd;

5.4.5. hüquqi şəxs statusu almaq istəyən qurumun hüquqi ünvanını (daimi fəaliyyət göstərən orqanının, siyasi partiyada rəhbər orqanlarının qərargahının yerləşdiyi yerə dair məlumatı) təsdiq edən sənəd;

5.4.6. qanuni təmsilçinin təyin edildiyi halda, onun şəxsiyyətini təsdiq edən sənədin surəti;

5.4.7. fondlarda nizamnamə kapitalının ödənilməsini təsdiq edən sənəd;

5.4.8. təsisçilərinin əcnəbilər və ya xarici hüquqi şəxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinlərinin təyin olunması barədə sənəd.

5.5. Yenidən təşkil nəticəsində yaradılan qurumların dövlət qeydiyyatına alınması barədə ərizəyə habelə aşağıdakılar əlavə edilir:

5.5.1. yenidən təşkil haqqında qərar;

5.5.2. təhvil aktı və ya bölünmə balansı;

5.5.3. mətbuatda müvafiq elanın dərc olunması barədə məlumat.

5.6. Ərizə surəti ilə birlikdə təqdim edilir. Ərizənin əsli Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında saxlanılır, surəti isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən ərizənin əslinin qəbul

edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsə qaytarılır. Ərizənin qəbul edilməsi hər hansı digər formada da təsdiq oluna bilər.

5.7. Hüquqi şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda məhkəmənin qərarı əsasında yenidən təşkil edildikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, bu Qanunun 5. 5-ci maddəsinin tələblərinə riayət edilməklə, həmin hüquqi şəxsin dövlət qeydiyyatına alınması üçün əsasdır. Bu halda dövlət qeydiyyatı bu Qanunun 8-ci maddəsində göstərilmiş müddətdə həyata keçirilməlidir.

M a d d ə 5 - 1 . **Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı**

5-1.1. Təsisçinin (təsisçilərin) istəyi ilə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı (yenidən təşkil nəticəsində yaranma halları istisna olmaqla) elektron qaydada həyata keçirilir. Elektron dövlət qeydiyyatı adi (yəni bu Qanunun 7-1-ci maddəsi ilə müəyyən edilmiş müddətdə) və ya sürətli qaydada həyata keçirilir. Həmin cəmiyyətin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə forması doldurularaq gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.

5-1.2. Adi elektron dövlət qeydiyyatı zamanı elektron ərizəyə yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin təsisçisi (təsisçiləri) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş nizamnamə əlavə edilir.

5-1.3. Sürətli elektron dövlət qeydiyyatı zamanı təsisçi fiziki şəxs elektron ərizə formasını doldurur, yalnız təkbaşına icra orqanının rəhbəri və fəaliyyət sahəsi barədə məlumatı bəyan edir. Bu halda təsisçi nizamnamə ilə real vaxt rejimində tanış olur və onu gücləndirilmiş elektron imza ilə təsdiq edir.

5-1.4. Elektron dövlət qeydiyyatı zamanı təsisçi hüquqi şəxs qismində yalnız vergi ödəyicisinin eyniləşdirmə nömrəsinə malik olan hüquqi şəxs çıxış edə bilər. Bu halda təsisçinin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarışın) və nizamnaməsinin surəti elektron ərizəyə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlavə edilir və qeyd edilən sənədlərin notariat qaydasında təsdiqi tələb olunmur.

5-1.5. Elektron dövlət qeydiyyatı zamanı yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin qanuni təmsilçisi, icra orqanının rəhbəri (üzvləri) və direktorlar şurasının

(müşahidə şurasının) üzvləri yalnız Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olan fiziki şəxslərdən təyin edilir.

5-1.6. Adi elektron dövlət qeydiyyatı zamanı ərizənin qəbul edilməsi barədə forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən təsdiqetmə bildirişi müraciət edənin şəxsi elektron ünvanına göndərilir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alındığı gün dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə elektron ünvanına göndərilir.

5-1.7. Sürətli elektron dövlət qeydiyyatı həyata keçirildiyi andan sonra dövlət qeydiyyatına alınmış yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, dövlət reyestrindən çıxarışı və nizamnaməsi elektron ünvanına real vaxt rejimində göndərilir.

5-1.8. Təsisçinin (təsisçilərin) və ya onun (onların) müvafiq qaydada vəkil etdiyi şəxsin müraciəti əsasında yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, dövlət reyestrindən çıxarışı və nizamnaməsi təsdiq olunaraq kağız daşıyıcılarında da verilir.

Maddə 6. **Xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatının xüsusiyyətləri**

6.1. Xarici hüquqi şəxsin nümayəndəliyinin və ya filialının dövlət qeydiyyatına alınması üçün bu Qanunun 5-ci maddəsində göstərilən sənədlərdən əlavə aşağıdakılar təqdim olunmalıdır:

6.1.1. nümayəndəliyi və ya filialı yaradan xarici hüquqi şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş əsasnamə (nümayəndəliyin və ya filialın əsasnaməsində onu yaradan xarici hüquqi şəxsin adı, olduğu yer, qeydiyyat nömrəsi və qeydiyyat tarixi, nümayəndəliyin və ya filialın hüquq və vəzifələri, idarə olunma və ləğv olunma qaydası və təsisçi tərəfindən zəruri hesab edilən digər məsələlər göstərilməlidir);

*6.1.1-1. Xarici qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin əsasnaməsində bu Qanunun 6.1.1-ci maddəsində göstərilən məlumatlardan başqa, həmçinin onu yaratmış təşkilatın qeydiyyatını aparmış qurumun adı, filial və ya nümayəndəliyin hüquqi ünvanı, fəaliyyətinin predmeti, rəhbərinin səlahiyyətləri göstərilməlidir.*

6.1.2. nümayəndəliyin və ya filialın yaradılması haqqında onu yaradan xarici hüquqi şəxsin qərarı;

6.1.2-1. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı ilə bağlı saziş.

6.1.3. nümayəndəliyin və ya filialın təsisçisi olan hüquqi şəxsin qeydiyyatını təsdiq edən sənəd - ticarət reyestrindən çıxarış (qeydiyyat şəhadətnaməsi və s. ). Bu halda həmin sənəd hüquqi şəxsin yerləşdiyi ölkədə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya bu ölkədə Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin diplomatik nümayəndəliyi tərəfindən (belələri olmadıqda, müstəsna hal kimi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən) qanunvericiliklə nəzərdə tutulmuş qaydada leqallaşdırılmalıdır;

6.1.4. nümayəndəliyi və ya filialı yaradan xarici hüquqi şəxs tərəfindən verilmiş etibarnamənin əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti;

6.1.5. nümayəndəliyin və ya filialın rəhbərinin təyin edilməsi barədə həmin nümayəndəliyi və ya filialı yaradan xarici hüquqi şəxsin qərarının əsli və ya notariat qaydasında təsdiq edilmiş surəti. *Xarici dövlətin qeyri-hökumət təşkilatının filialının və ya nümayəndəliyinin rəhbərinin təyin edilməsi barədə sənəddə onun səlahiyyət müddəti göstərilməlidir;*

*6.1.6. xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin rəhbəri müavininin təyin edilməsi barədə sənəd.*

6.2. Notariat qaydasında təsdiq edilməsi nəzərdə tutulmuş sənədlər xarici ölkələrin notariusunda təsdiq edildiyi halda, bu Qanunun 6. 1. 3-cü maddəsində müəyyən edilmiş qaydaya əməl olunmalıdır.

Maddə 7. **Hüquqi şəxs statusu almaq istəyən xarici investisiyalı qurumun dövlət qeydiyyatının xüsusiyyətləri**

7.1. Hüquqi şəxs statusu almaq istəyən xarici investisiyalı qurumun dövlət qeydiyyatına alınması üçün bu Qanunun 3-ci maddəsində göstərilən sənədlərdən əlavə, aşağıdakılar təqdim olunmalıdır:

7.1.1. təsisçi xarici hüquqi şəxsdirsə, onun qeydiyyatını təsdiq edən sənəd - ticarət reyestrindən çıxarış, qeydiyyat şəhadətnaməsi və s. (bu halda həmin sənəd hüquqi şəxsin yerləşdiyi ölkədə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya bu ölkədə Azərbaycan Respublikasının mənafeyini təmsil edən

digər ölkənin diplomatik nümayəndəliyi tərəfindən (beləlləri olmadıqda, müstəsna hal kimi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən) qanunvericiliklə nəzərdə tutulmuş qaydada leqallaşdırılmalıdır);

7.1.2. bu Qanunun 7. 1. 1-ci maddəsində müəyyən edilmiş qaydada leqallaşdırılmış, vətəndaşı olduğu və ya daimi yaşadığı, yaxud hər hansı üçüncü ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmasını təsdiq edən sənəd.

7.2. Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ əldə etmiş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər təsis etdikləri xarici investisiyalı qurumun dövlət qeydiyyatına alınması üçün bu Qanunun 5-ci maddəsində müəyyən edilmiş qaydada sənədləri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim edirlər.

Maddə 7-1. **Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun dövlət qeydiyyatına alınması qaydası**

Hüquqi şəxs statusu almaq istəyən kommersiya qurumunun, o cümlədən xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialının dövlət qeydiyyatı 2 gündən gec olmayaraq həyata keçirilməlidir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətin elektron dövlət qeydiyyatı sürətli elektron dövlət qeydiyyatı zamanı dərhal, adi elektron dövlət qeydiyyatı zamanı isə 1 gündən gec olmayaraq həyata keçirilməlidir.

Maddə 8. **Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun dövlət qeydiyyatına alınması qaydası**

8.1. Hüquqi şəxs statusu almaq istəyən qeyri-kommersiya qurumunun, habelə xarici qeyri-kommersiya hüquqi şəxsinin nümayəndəlik və ya filialının dövlət qeydiyyatı ~~, bir qayda olaraq,~~ 40 gündən gec olmayaraq həyata keçirilməlidir.

8.2. Dövlət qeydiyyatına alınması üçün ərizə və ona əlavə edilməli olan sənədlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən baxılması üçün qəbul edilir və 30 gün müddətində onların Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğunluğu yoxlanılır. Müstəsna hallarda yoxlama zamanı əlavə araşdırma aparılması zərurəti yarandıqda, bu müddət daha 30 günə qədər artırıla bilər.

8.3. Təqdim edilmiş sənədlərdə dövlət qeydiyyatına alınması üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həmin sənədləri müraciət etmiş şəxsə qaytarmaqla, bu

çatışmazlıqların aradan qaldırılması üçün əlavə olaraq 20 gün müddət təyin edir. İmtinaya səbəb olmayan bütün çatışmazlıqlar eyni vaxtda aşkar edilməli və aradan qaldırılması üçün müraciət edənə təqdim edilməlidir.

8.4. Təqdim edilmiş sənədlər yoxlanıldıqdan və ya həmin sənədlərdə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldıqdan sonra 10 gündən gec olmayaraq müraciət edənə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya dövlət qeydiyyatına alınmasından imtina (qanunvericiliyin həmin imtinaya səbəb olmuş müddəaları göstərilməklə və izah edilməklə) barədə yazılı məlumat verilir.

8.5. Bu maddədə müəyyən edilmiş müddətdə dövlət qeydiyyatına alınmasından imtina barədə cavab verilmədikdə, həmin qurum dövlət qeydiyyatına alınmış hesab olunur. Bu halda Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı 10 gündən gec olmayaraq müraciət edənə dövlət qeydiyyatı haqqında şəhadətnamə verməlidir.

8.6. (Çıxarılıb)

Maddə 9. **Təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması**

9.1. Hüquqi şəxslərin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının təsis sənədlərinə edilən hər bir dəyişiklik, eləcə də qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi qeydiyyata alınmalıdır.

9.2. Dəyişikliyin qeydiyyata alınması üçün həmin dəyişikliyin baş verdiyi andan 40 gündən gec olmayaraq Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir. Ərizədə, baş vermiş dəyişiklik göstərilməli və həmin dəyişikliyi təsdiq edən sənədlər təqdim edilməlidir. Dəyişiklik bu Qanunun 11. 3-cü maddəsinin tələblərinə zidd olmadıqda, müvafiq icra hakimiyyəti orqanı 5 gün müddətində dəyişikliyi qeydiyyata alır.

9.3. Hüquqi şəxslərin və xarici hüquqi şəxslərin filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklər, habelə hüquqi şəxslərin dövlət reyestrində onlar barədə qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi yalnız dövlət qeydiyyatına alındıqdan sonra qüvvəyə minir. Hüquqi şəxslər və xarici hüquqi şəxslərin filial və ya nümayəndəlikləri tərəfindən qüvvəyə minməmiş dəyişikliklər əsasında hər hansı fəaliyyət həyata keçirilə bilməz.

9.4. Hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin, habelə dövlət reyestrində qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyinin qeydiyyatına dair sənədlərə baxılması zamanı təşkilatla bağlı əvvəllər hər hansı dəyişikliyin bu Qanunla nəzərdə tutulmuş qaydada qeydiyyat üçün təqdim olunmaması müəyyən edildikdə qurum Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyətə cəlb olunmaqla aşkar edilmiş çatışmazlıq aradan qaldırılmalıdır.

Maddə 10.(Çıxarılıb)

Maddə 11. **Qanunun tətbiqi zamanı qanunçuluğun təminatı**

11.1. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş əsaslardan başqa hər hansı digər əsasa görə, hüquqi şəxs statusu almaq istəyən qurumların, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatına alınmasından və dövlət reyestrinə daxil edilməsindən, eləcə də dövlət reyestrində dəyişikliklər edilməsindən imtinaya yol verilmir.

11.2. Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının yaradılmasının məqsədəuyğun olmaması mülahizələrinə görə onların müvafiq olaraq dövlət qeydiyyatına alınmasından və dövlət reyestrinə daxil edilməsindən imtinaya yol verilmir.

11.3. Hüquqi şəxs statusu almaq istəyən qurumun, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınmasından, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət reyestrinə daxil edilməsindən, habelə təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasından yalnız aşağıdakı hallarda imtina edilə bilər:

11.3.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim olunmuş sənədlər Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər qanunvericilik aktlarına zidd olduqda;

11.3.1-1. ərizədə göstərilən məlumatlar və (və ya) ona əlavə edilən sənədlər yanlış olduqda;

11.3.2. hüquqi şəxs statusu almaq istəyən qurumların məqsədləri, vəzifələri və fəaliyyət formaları qanunvericiliyə zidd olduqda;

11.3.2-1. Qeyri-hökumət təşkilatlarının nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsi, habelə dövlət nəzarəti və yoxlama funksiyaları nəzərdə tutulduqda;

11.3.3. firma adlarının qorunması haqqında qanunvericiliyin tələbləri pozulduqda və ya eyni adlı qeyri-kommersiya təşkilatı qeydiyyata alınmış olduqda, qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edildikdə;

11.3.4. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsis sənədlərində aşkar edilmiş çatışmazlıqlar bu Qanunun 8. 3-cü maddəsində müəyyən olunmuş müddət ərzində aradan qaldırılmadıqda.

11.4. Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının müvafiq olaraq dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması üçün bu Qanunda göstərilməyən sənədlərin tələb olunmasına yalnız o halda yol verilir ki, belə sənədlərin təqdim edilməsi Azərbaycan Respublikasının digər qanunvericilik aktlarında nəzərdə tutulmuş olsun.

11.4-1. Hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin adının dəyişdirilməsi faktının dövlət qeydiyyatına alınması zamanı həmin təşkilatların möhürləri müvafiq icra hakimiyyəti orqanına təhvil verilməlidir. Möhür müvafiq icra hakimiyyəti orqanına təqdim edilməyənədək təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliklərinin dövlət qeydiyyatına alınmasını təsdiq edən sənədlər verilmir. Möhür itirildiyi halda bu barədə mətbuatda dərc edilmiş elan və onun tapılmaması haqqında müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayış təqdim edilməlidir.

11.5. Hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının müvafiq olaraq dövlət qeydiyyatına alınmasından və dövlət reyestrinə daxil edilməsindən, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasından qanunsuz imtina və ya yayınma barədə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yuxarı orqana və ya məhkəməyə şikayət verilə bilər.

## III fəsil
## Hüquqi şəxslərin dövlət reyestri

Maddə 12. **Hüquqi şəxslərin dövlət reyestrinin əsas prinsipləri**

12.1. Hüquqi şəxslərin dövlət reyestri Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır.

12.2. Hüquqi şəxslərin dövlət reyestri vahid forma, metod və prinsiplər əsasında aparılır.

12.3. Hüquqi şəxslərin dövlət reyestri Azərbaycan Respublikasının informasiya ehtiyatıdır və onun mühafizəsi və istifadəsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və təmin olunur.

12.3-1. Qeyri-hökumət təşkilatının filial və nümayəndəliklərinin dövlət qeydiyyatına alınması tələb edilmir. Təşkilat on gün müddətində müvafiq icra hakimiyyəti orqanına filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verir.

12.4. Hüquqi şəxslərin dövlət reyestri kağız və elektron daşıyıcılarda tərtib edilir.

12.5. Kağız və elektron daşıyıcılardakı qeydlər arasında ziddiyyət olduqda, qanunvericilikdə digər qayda nəzərdə tutulmayıbsa, kağız daşıyıcılardakı qeydlər üstün qüvvəyə malik olur.

12.6. Dövlət reyestrinin elektron daşıyıcılarda tərtib edilməsi vahid təşkilati, metodoloji və texniki-proqram prinsiplərinin tətbiqinə əsaslanmaqla, dövlətin digər informasiya sistemləri və şəbəkələri ilə onun qarşılıqlı əlaqədə və vəhdətdə fəaliyyət göstərməsini təmin edir.

12.7. (Çıxarılıb)

12.8. Dövlət reyestri aşağıdakılardan ibarətdir:

12.8.1. hüquqi şəxslərin, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının təşkili, qeydiyyatı, yenidən təşkili, ləğv edilməsi barədə məlumatlar;

12.8.2. təsis sənədlərində dəyişikliklər edilməsi *və qeydə alınmış faktların hər bir sonrakı dəyişikliyi* barədə məlumatlar;

12.8.3. Azərbaycan Respublikasının ərazisində dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyi və ya filialı, habelə digər qurumları barədə məlumatlar;

*12.8.3-1. qeyri-hökumət təşkilatına və xarici dövlətlərin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılması və bərpa edilməsi, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması barədə məlumatlar;*

12.8.4. qanunvericiliklə müəyyən edilmiş və saxlanmaq üçün qeydiyyat orqanına təqdim edilmiş sənədlər toplusu.

12.9. Hüquqi şəxslərin dövlət reyestri illər üzrə və Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi (rayon və ya şəhər) üzrə aparılır. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dövlət reyestri digər meyarlar üzrə də aparıla bilər.

12.10. Dövlət qeydiyyatının ərazi aidiyyəti hüquqi şəxsin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının hüquqi ünvanı əsasında müəyyən edilir.

12.11. Dövlət reyestrinin aparılması qaydası, dövlət reyestr kitabının, qeyri kommersiya *qurumları* üçün dövlət qeydiyyatı haqqında şəhadətnamənin və dövlət reyestrindən çıxarışın formaları və ərizənin forması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

12.12. Kommersiya qurumları üçün dövlət qeydiyyatı haqqında şəhadətnamənin, dövlət reyestrindən çıxarışın və qeydiyyatla bağlı müraciət ərizəsinin (o cümlədən, elektron ərizənin) formaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir və onu internet səhifəsində yerləşdirilir.

Maddə 13. **Dövlət qeydiyyatına alınmanı və dövlət reyestrinə daxil edilməni təsdiq edən sənəd**

13.1. Dövlət qeydiyyatına alınmış hüquqi şəxsə, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən onun dövlət qeydiyyatına alınmasını təsdiq edən sənəd - dövlət qeydiyyatı haqqında şəhadətnamə verilir.

13. 2. Dövlət qeydiyyatına alınmış hüquqi şəxs, habelə xarici hüquqi şəxsin nümayəndəlik və ya filialı barəsində dövlət reyestrinə daxil edilmiş məlumatlar dövlət reyestrindən çıxarışla təsdiq edilir.

13.3. Dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxsə, xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və filialına verilən şəhadətnamədə və dövlət reyestrindən çıxarışda sahibkarlıq fəaliyyəti subyektləri üçün Azərbaycan Respublikasında vahid kod olan vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilir.

13.4. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə və dövlət reyestrindən çıxarışı hüquqi şəxsin, onun filial və nümayəndəliyinin fərdiləşdirilməsi üçün əsasdır.

Maddə 14. **Dövlət reyestrinə daxil edilən məlumatlar**

14.1. Dövlət reyestrində aparılan yazıda reyestrə daxil edilmiş qurumlar barəsində aşağıdakı məlumatlar əks etdirilməlidir:

14.1.1. qurumun adı (firma);

14.1.2. qurumun hüquqi ünvanı (daimi fəaliyyət göstərən orqanının, siyasi partiyada rəhbər orqanlarının qərargahının yerləşdiyi yerə dair məlumat);

14.1.3. qurumun təşkilati-hüquqi forması;

14.1.4. maliyyə ili;

14.1.5. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (kommersiya qurumları üçün), qeyri-kommersiya qurumunun qeydiyyat nömrəsi;

14.1.6. qurumun hər bir təsisçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri; təsisçi hüquqi şəxsdirsə, onun adı, hüquqi ünvanı və qeydiyyatı haqqında məlumatlar;

14.1.7. qurumun hər bir qanuni təmsilçisinin adı, soyadı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;

14.1.8. hüquqi şəxsin Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yaratdığı qurumların olduğu yer, təşkilati-hüquqi forması və qeydiyyatı haqqında məlumatlar;

14.1.9. qurumun ləğvetmə prosesində olması barədə məlumat;

14.1.10. qurumun ləğv edilməsi barədə məlumat.

14.2. Dövlət reyestrində hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları üçün bu Qanunun 14. 1-ci maddəsində nəzərdə tutulmuş məlumatlardan əlavə, hüquqi şəxsin təşkilati-hüquqi formasından asılı olaraq aşağıdakı məlumatlar göstərilməlidir:

14.2.1. kommandit ortaqlığında - hər bir kommanditçinin mayasının miqdarı;

14.2.2. məhdud məsuliyyətli cəmiyyətdə və ya səhmdar cəmiyyətində - nizamnamə kapitalının miqdarı, hər bir təsisçinin mayasının miqdarı, direktorlar şurası (müşahidə şurası) yaradıldığı halda, onun hər bir üzvünün adı, soyadı, atasının adı və yaşayış yeri;

14.2.3. qeyri-kommersiya təşkilatlarında - fəaliyyət predmeti və məqsədləri, fəaliyyət ərazisi*, qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan təsisçisinin (təsisçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi*, ictimai birliklərin üzvlərinin sayı, fondlarda - himayəçilər şurasının üzvləri, fondun nizamnamə kapitalı və təsisçilərin əmlak paylarının həcmi haqqında məlumatlar.

14.2.4. xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - Azərbaycan Respublikasında filial və ya nümayəndəliyi olan xarici qeyri-hökumət təşkilatının təsisçiləri, filial və ya nümayəndəliyin rəhbərinin və onun müavininin səlahiyyət müddəti, eləcə də rəhbərinin müavininin adı, soyadı, atasının adı, vətəndaşlığı, yaşayış yeri, habelə dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin qüvvədə olma müddəti barədə məlumatlar.

14.2.5. qeyri-hökumət təşkilatlarında və xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərində - qurumun icra orqanlarının tərkibi və səlahiyyət müddəti, *qurumun əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olan qanuni təmsilçisinin (təmsilçilərinin) daimi yaşamaq üçün icazə müddətinin bitməsi tarixi*, ləğv edilmiş qurumun əmlak məsələlərinin Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunması, quruma edilmiş xəbərdarlıqlar, verilmiş göstərişlər və onların icrası barədə, habelə fəaliyyətinin dayandırılmasına *və bərpa edilməsinə* dair məlumatlar.

Maddə 15. **Dövlət reyestrindən çıxarışlar**

15.1. Dövlət qeydiyyatına alınmış hər bir hüquqi şəxs, habelə xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialı və Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış hüquqi şəxsin yaratdığı qurumlar barədə məlumatlar dövlət

reyestrinə daxil edildikdən sonra dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi üçün təqdim edilmiş sənədlər arxivə verilir.

15.2. Dövlət qeydiyyatına və (və ya) dövlət reyestrinə daxil edilmiş hər bir quruma Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən onun dövlət qeydiyyatına alındığı və ya dövlət reyestrinə daxil edildiyi vaxt dövlət reyestrindən çıxarış verilməlidir.

15.3. Təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alındığı vaxtdan ən geci 3 gün keçənədək müraciət etmiş şəxsə dövlət reyestrindən çıxarış verilməlidir.

15.4. Dövlət reyestrindən çıxarışda göstərilən məlumatların həcmi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

15.5. Dövlət reyestrindən çıxarışı almış şəxs onun düzgünlüyünü yoxlamalı və yanlışlıq aşkar etdikdə, çıxarışın verildiyi vaxtdan 3 həftə müddətində bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. Müvafiq icra hakimiyyəti orqanı həmin yanlışlığın aşkar edilməsi barədə məlumatı yoxlamalı və dövlət reyestrində müvafiq düzəlişlər aparmalıdır.

15.6. Dövlət reyestrindən çıxarışdakı hər hansı yanlışlıq barədə bu Qanunun 15. 5-ci maddəsində göstərilmiş müddətdə məlumat verilmədikdə, dövlət reyestrindəki yazı (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) Azərbaycan Respublikasının rəsmi qəzetində dərc edilir.

15.7. Dövlət reyestrindən çıxarışlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) sorğu əsasında üçüncü şəxslərə də verilir.

15.8. Dövlət reyestrindən çıxarışlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) sənədlərin surəti şəklində də verilə bilər. Sənədlərin surəti, dövlət orqanları və təsisçilər istisna olmaqla, digər şəxslərə rüsum ödənilməklə verilir.

15.9. Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar sorğu əsasında aşağıdakılara verilir:

15.9.1. qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə, istintaq və təhqiqat orqanlarına;

15.9.2. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə;

15.9.3. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada maliyyə monitorinqi orqanına;

15.9.4. "İcra haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada məcburi icra orqanına;

15.9.5. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada vəkilə;

15.9.6. həmin kommersiya hüquqi şəxsin digər təsisçilərinə (iştirakçılarına);

15.9.7. barəsində dövlət reyestrindən məlumatların verilməsi tələb olunan şəxsin razılığı ilə üçüncü şəxslərə.

Maddə 16. **Hüquqi şəxsin, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının reyestrdən çıxarılması**

16.1. Hüquqi şəxsin ləğv prosesində olması barədə məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün ləğvetmə komissiyası (təsviyəçi) təyin olunduğu gündən sonra 15 gün müddətində ərizə ilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir.

16.1-1. Bu Qanunun 16.1-ci maddəsində qeyd edilən ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

16.1-1.1. ləğvetmə qərarı;

16.1-1.2. ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanat;

16.1-1.3. Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi,

kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunmasını təsdiq edən sənəd və möhür.

16.1-2. Təqdim edilmiş sənədlər bu Qanunun 11.3-cü maddəsinin tələblərinə zidd olmadıqda, 5 gün müddətində hüquqi şəxsin ləğvetmə prosesində olması barədə qeyd reyestrə daxil edilir.

16.2. Ləğvetmə komissiyası (təsviyəçi) qalan əmlakın bölünməsindən və ya istifadə edilməsindən sonra 10 gün ərzində hüquqi şəxsin dövlət reyestrindən çıxarılması üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına aşağıdakı sənədləri təqdim etməlidir:

16.2.1. ləğvetmə balansı;

16.2.2. qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı və həmin əmlakın iştirakçılara təqdim edilməsini (qeyri-kommersiya təşkilatı olduğu halda isə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə edilməsini) təsdiq edən sənəd;
16.2.3. hüquqi şəxsin qeydiyyat şəhadətnaməsinin və nizamnaməsinin (əsasnaməsinin) əsli, üzərində "ləğv prosesindədir" yazılmış möhür;

16.2.4. səhmdar cəmiyyətlərdə səhmlərin dövriyyədən çıxarılmasına dair müvafiq icra hakimiyyəti orqanının arayışı;

16.2.5. hüquqi şəxs yenidən təşkil formasında ləğv edildikdə, bu Qanunun 16.1-1.1-ci, 16.1-1.3-cü, 16.2.3-cü və 16.2.4-cü maddələrində nəzərdə tutulan sənədlərlə birlikdə təhvil aktı və ya bölünmə balansı.

16.3. Ərizə təsisçilər, yaxud ləğvetmə komissiyasının səlahiyyətli üzvləri tərəfindən imzalanır və təqdim edilir.

16.4. Ərizə surəti ilə birlikdə təqdim edilir. Ərizənin əsli Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanında saxlanılır, surəti isə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən ərizənin əslinin qəbul edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsə qaytarılır. Ərizənin qəbul edilməsi hər hansı digər formada da təsdiq oluna bilər.

16.5. Ləğvetmə barədə zəruri sənədlər təqdim edildikdən sonra Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həmin sənədlərin qanunvericiliyin tələblərinə uyğunluğunu yoxlayır və çatışmazlıq aşkar edilmədikdə, sənədləri aldığı vaxtdan 7 gün müddətində qurumun reyestrdən çıxarılması barədə qərar qəbul edir.

16.6. Təqdim olunmuş sənədlərdə çatışmazlıq aşkar edildiyi halda, bu barədə müraciət etmiş şəxslərə yazılı məlumat verilir və çatışmazlığın aradan qaldırılması tələb olunur.

16.7. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 16.5-ci maddəsində müəyyən edilmiş müddətdən gec olmayaraq qurumun reyestrdən çıxarılması haqqında qərar qəbul edir və bu barədə müraciət etmiş şəxslərə məlumat verir. Qurumun ləğv edilməsi barədə reyestrdə müvafiq qeydlər aparılır. Dövlət reyestrindən çıxarılmış hüquqi şəxslər, habelə xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri fəaliyyət göstərə bilməz.

16.8. Çatışmazlıqların aradan qaldırılması barədə məlumat verilmədikdə, qurum ~~60 gün ərzində~~ reyestrdən çıxarıla bilməz.

16.9. Xarici hüquqi şəxslərin filial və ya nümayəndəliklərinin ləğv edilməsi zamanı hüquqi şəxslərin ləğvi üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsi və bu Qanun ilə müəyyən edilmiş qaydalar tətbiq edilir. Azərbaycan Respublikasında xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatı ilə əlaqədar bağlanmış sazişin qüvvədə olma müddətinin uzadılmaması həmin filial və ya nümayəndəliyin ləğv edilməsi üçün əsasdır.

*16.10. Xarici dövlətin qeyri-hökumət təşkilatı digər təşkilatla birləşdikdə, qoşulduqda və ya özü bölündükdə, təşkilati-hüquqi formasını dəyişdikdə onun Azərbaycan Respublikasının ərazisindəki filialı və ya nümayəndəliyi ləğv edilir.*

Maddə 17. **Dövlət qeydiyyatı barədə məlumatlandırma**

17.1. qeyri-kommersiya hüquqi şəxslərin, habelə xarici qeyri-kommersiya hüquqi şəxsin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatını aparan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı:

17.1.1. hüquqi şəxsi, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialını dövlət qeydiyyatına aldıqdan və dövlət reyestrinə daxil etdikdən sonra bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına hər ay müəyyən edilmiş formada məlumat göndərir;

17.1.2. qanunvericiliklə müəyyən edilmiş hallarda dövlət qeydiyyatına alınmış hüquqi şəxslər ləğv edildikdə və ya dövlət reyestrindəki yazılar ləğv edildikdə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına bu barədə məlumat verir.

17.2. Kommersiya hüquqi şəxsin, habelə xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və ya filiallarının dövlət qeydiyyatını aparan Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı;

17. 2.1. hər gün dövlət qeydiyyatına aldığı kommersiya hüquqi şəxsləri, habelə xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və ya filialları barədə məlumatları aidiyyəti üzrə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına elektron və (və ya) kağız daşıyıcı formasında göndərir;

17.2.2. qanunvericilikdə müəyyən edilmiş hallarda dövlət qeydiyyatına alınmış kommersiya hüquqi şəxsi, habelə xarici kommersiya hüquqi şəxsin nümayəndəlik və ya filialı ləğv edildikdə və ya dövlət reyestrindəki yazılar ləğv edildikdə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına bir gün müddətində bu barədə məlumat verilir.

Maddə 18. **Dövlət reyestrinin aşkarlığı**

18.1. Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla, hər bir şəxs dövlət reyestrindəki yazılarla tanış olmaq, dövlət reyestrindən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etmək hüququna malikdir. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı istənilən maraqlı şəxsin tələbi ilə hüquqi şəxsin dövlət qeydiyyatına alınması və ya alınmaması barədə məlumat verməlidir.

18.2. Hüquqi şəxslərin, xarici hüquqi şəxslərin nümayəndəlik və filiallarının dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsinə dair, habelə hüquqi şəxslərin təşkili və fəaliyyəti ilə əlaqədar dərc edilməsi qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatlar (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla) ümumi tanışlıq üçün rəsmi dövlət qəzetində dərc edilir.

## IV fəsil

## YEKUN MÜDDƏALAR

M a d d ə 19. **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulması Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur.

M a d d ə 20. **Qanunun qüvvəyə minməsi**

20. 1. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

20. 2. Bu Qanunun tələbləri dövlət qeydiyyatına alınması və dövlət reyestrinə daxil edilməsi qaydası xüsusi qanunvericilik aktı ilə tənzimlənən hüquqi şəxslərə şamil edilmir.

20. 3. "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" 1996-cı il 6 fevral tarixli, 17-IQ saylı Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək başqa dövlət orqanlarında dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin qeydiyyat sənədləri bu Qanun qüvvəyə mindiyi gündən 1 il müddətində onları qeydiyyata almış orqanlar tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təhvil verilməlidir. Bu sənədlər həmin hüquqi şəxslər və ya onların təsisçiləri tərəfindən də təqdim edilə bilər.

20. 4. Bu Qanun qüvvəyə mindikdən sonra 6 ay müddətində bütün hüquqi şəxslər, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filialları öz qanuni təmsilçiləri haqqında məlumatları, əvvəllər bu məlumatlar təqdim edilməmişsə, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidirlər.

20. 5. Bu Qanun qüvvəyə mindiyi gündən "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" 1996-cı il 6 fevral tarixli, 17-IQ saylı Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilir.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 dekabr 2003-cü il

№ 560-IIQ

*Haqqımızda*

*MG Consulting MMC Azərbaycanda yerli və xarici şirkətlər üçün müxtəlif növ hüquq və konsaltinq xidməti göstərir. Hal-hazırda MG Consulting MMC-nin müştərilərinə və tərəfdaşlarına Britaniya və Yaponiya səfirlikləri, Amerika Hüquqşünaslar Assosiasiyası, Qeyri-kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz (İCNL), Ford Fondu, Heks Eper, İntertek Azeri LTD, ECO Consult və s. daxildir.Şirkətin rəhbəri hüquqşünas Məhəmməd Quluzadədir.*

*Ünvan: Bakı ş., B.Səfəroğlu 133, SATPlaza 4-cü mərtəbə*
Email: office@mgc.az